

**Aleksey Naumov: "Sülh müqaviləsi tezliklə imzalanacaq"**

15

# Heydər Əliyev Fondunun

## xeyriyyəçilik əməlləri nəcib əməllərin təzahürüdür

**SƏS**

№ 013 (6454) 25 yanvar 2022-ci il. Qiymətı 60 qəpik

**İlham Əliyev: "Ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur"**



3

# Ermənistan

## prezidentinin istefasının PƏRDƏARXASI



Ötən il Ermənistanda keçirilən növbədənkənar parlament seçkiləri görünür bütün suallara cavab vermədi və bu işğalçı ölkədə ciddi daxili siyasi böhrandan çıxa bilmədi. Bu, yenicə istefa verən Ermənistan prezidenti Armen Sarkisyanın bəyanatından da aydın şəkildə bəlli olur və bu istefa, əslində həqiqətən də Ermənistandakı vəziyyəti səciyyələndirir. Heç kim üçün sirr deyildi ki, Ermənistan prezidenti Sarkisyan bu ölkədə siyasi fiqurdan başqa bir şey deyildi. Qərarların qəbul edilməsində də Sarkisyanın rolu yox idi, hadisələrə müdaxilə etmək...

6

# Nə oldu sənə, Messi?..




16

**Amerikalı milyarder "ölümsüzlük həbi" hazırlayır**



## Ukrayna böhranı: Qərb-Rusiya qarşıdurması son həddə



13



**Xədicə İsmayıl Qərbin iç üzünü niyə və necə açdı**

14

Jurnalist: "Qərbdə bəzi insanlar deyirdilər ki, mən Qarabağ məsələsində Ermənistana qarşı çıxsam, məni...



**Dönərxanalara ət haradan gəlir?**

8

VACİB MƏQAMLAR



# “Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır”

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqa müraciətində bildirmişdir ki, bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır: ”Azad edilmiş torpaqlarda bu il geniş quruculuq-bərpa işlərinə start verildi. Deyə bilərəm ki, dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb. Bu işlər haqqında Azərbaycan vətəndaşları müntəzəm olaraq məlumatlandırılır. Əgər mən bu haqda danışmağa başlasam, yəqin ki, bir neçə saat vaxt lazım olacaq, hər şey göz qabağındadır. Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq”. Bəli, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun vətən torpaqlarını işğaldan azad etməsi, otuz ilə yaxındır didərginlik həyatı yaşayan məcburi köçkünlərin doğma yurda qaytarılmasına imkan yaradıb. Azərbaycan dövlətinin qarşıya qoyduğu əsas vəzifə isə keçmiş məcburi köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaq, onların doğma yurdlarında xoşbəxt həyat sürmələrinə nail olmaqdır. ”Qaçqın və məcburi köçkünlər” adlı bu cümlə, erməni kimi xisləti pozuq, insanlığa düşmən kəsilən bir xalqın qonşusu olmağın ağrılarını hər kəsdən yaxşı bilən, nankor ermənilərdən tarixdə olmazın mənfurluqlarına şahid olan Azərbaycan xalqı üçün ağır və həm də yaralı bir cümlədir. Bu cümlənin içində elobasından didərgin düşmüş yüz minlərlə insanın acı taleyi, erməni faşistləri tərəfindən 20-ci əsrin əvvəllərindən bəri minlərlə azərbaycanlı körpənin şişə çəkilmiş cəsədi, qanına qəltan edilmiş qoca və qadınların ahnaləsi gizlənir.1988-ci ildən xalqımıza qarşı aparılan erməni terroru isə onunla nəticələndi ki, yüz minlərlə soydaşımız doğma yurdlarından didərgin düşdü, bir çoxları isə erməni faşizminin 20-ci əsrdəki vəhşi daşnak siyasətinin qurbanına çevrildi. Məhz Ulu Öndər Heydər Əliyev xalqın çağırışı ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra, qaçqın və məcburi köçkünlərin problemləri diqqətdə saxlanıldı, onlara qarşı dövlət qayğısı geniş xarakter aldı. Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində öz ata-baba yurdlarından didərgin düşmüş soydaşlarımızın qayğıları Ümummilli Lider Heydər Əliyevin ən çox diqqət göstərdiyi məsələlərdən biri olub.

## VERİLƏN VƏDƏ SADİQLİK ÖRNƏYİ

Bu təbəqədən olan insanlara qayğı və diqqət göstərilməsi Dahi Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin mühüm istiqamətini təşkil edir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2013-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirərkən ölkədə bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bəyan etmiş və vədini 2017-ci ilin sonunda, vaxtından bir il əvvəl yerinə yetirmişdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva da bu vəzifəyə təyin ediləndən sonra ilk müşavirəsini, məhz məcburi köçkünlərin problemlərinə həsr edib və bundan dərhal sonra məcburi köçkünlər üçün yeni yaşayış kompleksinin təməlini qoydu.Təsadüfi deyil ki, ötən il Azərbaycanın bölgələrinə 47 dəfə səfər edən dövlət başçısı bunun 32-sini işğaldan azad edilmiş torpaqlara edib, 7 dəfə Şuşaya üz tutub. Prezident Qarabağa, Şərqi Zəngəzura hər səfərində tarixi torpaqlarımızda daimi həyatın var olması üçün möhkəm bünövrələr atır, əhəmiyyətli layihələr gerçəkləşdirir. 30 il ərzində ermənilər tərəfindən tamamilə darmadağın edilən ərazilərimiz sürətlə dəyişir, mənfur düşmənin viran qoyduğu yurdlarımıza yeni nəfəs verilir. Azadlığına qovuşan yurdlarımızda əsaslı quruculuq tədbirləri həyata keçirilir, infrastruktur yenilənir, yollar çəkilir, beynəlxalq hava limanları tikilir. Eyni zamanda, vəhşi ermənilərin illərlə divan tutduğu tarixi, mədəni, dini irsimiz bərpa olunur, dağıdılan məscidlərimizdən yenidən azan sədaları yüksəlir. Onu da qeyd edək ki, Qarabağda, Şərqi Zəngəzurda anbaan baş verən yeniliklər Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birgə həmin bölgələrə səfərləri zamanı bir daha əyani şəkildə gözlər önündə canlanır. Mütəmadi olaraq həyata keçirilən bu səfərlər sayəsində bütün dünya bir daha Azərbaycan xalqının, dövlətinin böyük potensialını, Prezidentinin qətiyyətini, əzmini görür.

## 2022-Cİ İLİN ”ŞUŞA İLİ” ELAN EDİLMƏSİ TARİXİ TORPAQLARIMIZA QOVUŞMAQDAN DOĞAN QÜRURUMUZUN TƏNTƏNƏSİ, EYNİ ZAMANDA, QARABAĞIN TACI OLAN ŞUŞANIN AZƏRBAYCAN XALQINA MƏXSUS OLMASININ GÖSTƏRİCİSİDİR

”Biz Şuşada böyük quruculuq işlərinə start verdik və azad edilmiş torpaqlar arasında təbii olaraq ən genişmiqyaslı bərpa işləri Şuşa şəhərində aparılır”. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bildirdiyi kimi, Şuşa işğaldan azad olunduqdan dərhal sonra mədəniyyət paytaxtımızda sürətli quruculuq-bərpa işlərinə start verilib, bütün sahələr üzrə kompleks layihələr həyata keçirilib. Şuşaya səfər edən hər kəs burada erməni vandallığının izlərinin silindiyinin, qalanın milli ruhunun özünə qaytarıldığının, günbəgün çiçəkləndiyinin şahidi olur. Bütün bu işlər birbaşa ölkə Prezidentinin şəxsi diqqəti və nəzarəti altında həyata keçirilir. Qarabağın baş tacının dirçəldilməsi, tarixi əzəmətinə qovuşdurulması dövlət başçımızın ən ümdə prioritetlərindəndir. Bu il təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşanın 270 illiyi təntənəli şəkildə qeyd olunacaq. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, böyük şairimiz Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.Bütün bunlar isə onun göstəricisidir ki, respublikamızda iqtisadi inkişaf sürətlə gedir və bu həm bütövlükdə Azərbaycanı, həm də işğaldan azad edilən yurdlarımızı tərəqqiyə doğru aparır.

## BU GÜNƏ QƏDƏR ÖLKƏNİN 30-DAN ARTIQ ŞƏHƏR VƏ RAYONUNDA QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN 115 YENİ QƏSƏBƏ VƏ HÜNDÜRMƏRTƏBƏLİ BİNALARDAN İBARƏT YAŞAYIŞ KOMPLEKSLƏRİ SALINIB

”Bu günə qədər ölkənin 30-dan artıq şəhər və rayonunda qaçqın və məcburi köçkünlər üçün 115 yeni qəsəbə və hündürmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb”. Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov açıqlamasında bildirib. Onun sözlərinə görə, 65 min məcburi köçkün və qaçqın ailəsi, yaxud 315 minə yaxın məcburi köçün və qaçqınlar həmin qəsəbələrdə müvəqqəti olaraq yeni mənzillərlə təmin edilib: ”Qeyd edilən qəsəbələr dövlətin xüsusi təyinatlı mənzil fonduna aiddir. Onlar məcburi köçkün və qaçqın soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə verilib”. Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə bu kateqoriyadan olan insanlar üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Onların sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada nadir təcrübədir. Bütün bu uğurların təmin olunmasında heç şübhəsiz, bu təbəqədən olan soydaşlarımızın kompleks həllini nəzərdə tutan və Azərbaycan Prezidentinin sərəncamları ilə təsdiq olunmuş məlum Dövlət Proqramı və ona edilmiş əlavələr, həmçinin digər fərman və sərəncamlar, hökumət tərəfindən qəbul olunmuş müvafiq qərarlar xüsusi önəm daşıyır. Çünki əhalinin rifahının yüksəldilməsini, sosial vəziyyətinin yaxşılaşdırılmasını şərtləndirən amillərdən biri də məhz verilən sərəncamların, hökumətin qərarlarının yerlərdə vaxtında və yüksək səviyyədə icra olunmasıdır. Əhalinin sosial durumunun yüksəlməsi həm də ölkədə sabitliyə və davamlı inkişafa təminatdır. Dünyada Azərbaycan qədər qaçqınlara diqqət yetirilmir. Bəli, bu, reallıqdır. Bu reallığı bir anlığa beynəlxalq təşkilatların hesabatlarına diqqət yetirməklə aydın görmək olar. Rəsmi məlumata əsasən, hazırda dünyanın bütün münaqişə zonalarında 1 qaçqına 1 ildə sərf olunan ən yüksək vəsait Azərbaycandadır. Elə buna görədir ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı 2012-ci ildə Azərbaycanı özünün İcraiyyə Komitəsinə üzv seçib. İndi beynəlxalq təşkilatlar tərəfindən dinamik sosial-iqtisadi inkişaf yolunda davamlı uğurların müəllifi olan Azərbaycanın qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində gördüyü irimiqyaslı işləri dünyanın oxşar problemlə qarşılaşan əksər ölkələri üçün nümunə hesab edilir. Bu isə Ulu Öndər Heydər Əliyevin siyasi, sosial-iqtisadi strategiyasını uğula həyata keçirən Prezident İlham Əliyevin sözügedən istiqamətdə tədbirləri ardıcıl və məqsədyönlü şəkildə davam etdirməsinin, doğma ocaqlarından didərgin salınan soydaşlarımızın bütün problemlərinin Azərbaycan dövlətinin gündəlik qayğısına çevrilməsinin bariz ifadəsidir.

## MƏCBURİ KÖÇKÜNLƏR İNDİ BÖYÜK QAYIDIŞIN İNTİZARINDA

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Vətən müharibəsinin mahiyyətini belə ifadə edirdi: ”Bizim davamız ədalətli davadır və əminəm ki, bu müharibədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək”. Əminliklə deyilən bu fikirləri Azərbaycan Ordusu 44 gün müddətində gerçəkləşdirdi. Bu tarixi Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da xalqa müraciətində dedi: ”Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!”.

İlham Əliyev prezident seçildikdən dərhal sonra illər ərzində çadır düşərgələrində dözülməz şəraitdə yaşamış qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün onlara yeni yaşayış qəsəbələrinin tikilməsinə başlamışdı. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu dünya hərb elminin səhifələrinə qızıl hərflərlə yazılan yüksək döyüş qabiliyyəti və ən müasir hərb taktikası və strategiyası nümayiş etdirdi. Şanlı Ordumuz bir milyondan çox qaçqın və köçkünlərin doğma torpaqlarını işğaldan azad etdi, uzun illər ərzində sonu görünməyən bir münaqişə ocağında sülh yaratdı və hazırda da qaçqınların tezliklə öz evlərinə qayıtması üçün lazım olan bütün addımları atmaqdadır.

Beləliklə, indi qarşıda iki böyük vəzifə durur: işğaldan azad olunmuş torpaqlarımızda vətəndaşlarımızın normal həyatının bərpası üçün lazımi infrastrukturun yaradılması və yurd-yuvasından didərgin düşmüş soydaşlarımızın yurdlarına geri dönməsi. Bu hədəflərin reallaşdırılması üçün kifayət qədər resursumuz - maliyyə imkanları və insan potensialımız, ən əsası isə əzmimiz və iradəmiz var. Prezident İlham Əliyev dediyi kimi: ”Xalqımızın birliyi bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq. Biz hamımız cənnət guşəmiz olan Qarabağı yenidən dirçəldəcəyik”.

***RƏFİQƏ HÜSEYNOVA***

# Heydər Əliyev Fondunun

## xeyriyyəçilik əməlləri nəcib əməllərin təzahürüdür

## İlham Əliyev:

### “Ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur”



**Xeyriyyəçilik, xeyirxahlıq, mərhəmət, şəfqət Azərbaycan xalqının mənəvi simasını səciyyələndirən humanist keyfiyyətlərdəndir. Azərbaycan xalqı həmişə özünün xeyirxah, xeyriyyəçi insanları ilə fəxr edib. Tariximizə nəzər salsaq belə insanların olduğunu görərik. Hacı Zeynalabdin Tağıyev, Əjdərbəy Aşurbəyov və başqaları xeyriyyəçi kimi tanınıb və əməlləri qoyduğu izlərdə yaşayır. Əldə etdikləri gəlirlərin bir qismini millətə, xalqa xərcləmək böyük əməl sahibi olmaq deməkdir.**

Azərbaycan adlı bir məmləkətin inkişafı və tərəqqisinə o kəslər töhfə verir ki, damarından axan qanı millətə, vətənə sevgi hissi ilə yoğrulub. Savadsızlığa qarşı mübarizə aparmaq, insanları maarifləndirmək, kimsəsizə və ehtiyacı olana əl tutmaq və s. mənəvi dəyərlər böyük insanlıq deməkdir. İnsanlara yaxşılıq etməyə çalışan, başqasının dərdinə şərik olan, onun halına yanan, ehtiyacı olanlara kömək əli uzadan xeyriyyəçi insanlarımız hər zaman olub. Azərbaycan xalqı öz ənənələri ilə haqlı olaraq hər zaman fəxr edib. Bu gün bu ənələri yaşadan və davam etdirən təşkilatlar, insanlar var. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva müasir dünyamızda xeyirxah əməlləri ilə xalqın ümid və pənah yerinə çevrilmişdir. Mehriban xanım Əliyeva müsahibələrinin birində ”xeyriyyəçilik” termininin insanların şüurunda adətən şəfqət, başqasının halına yanma, ehtiyacı olanlara könüllü və təmənnasız kömək etmək kimi keyfiyyətlər və hərəkətlər barədə assosiasiya yaratdığını bildirib: ”Xeyriyyəçilik işlərinin dairəsi konkret, özü də bir qayda olaraq, əhalinin sosial baxımdan zəif təbəqələrini təmsil edən insanlara - əlillərə, yetimlərə, qocalara və başqalarına bu və ya digər şəkildə kömək göstərilməsi ilə məhdudlaşır. Bu mənada xeyriyyəçilik anlayışının kökləri qədim dövrlərə, təmənnasız könüllü fəaliyyətin, əsasən, zəiflərə və ehtiyacı olanlara kömək göstərilməsi ilə məhdudlaşdığı vaxtlara gedib çıxır. Bununla bərabər, müasir anlamda xeyriyyəçilik daha geniş məna daşıyır, cəmiyyətin rifahı naminə hər cür təmənnasız könüllü fəaliyyəti əhatə edir”.

Mehriban xanım Əliyeva onu da bildirib ki, bu fəaliyyət həm konkret fərdlərə və zəif müdafiə olunan qruplara, həm də ictimai həyatın müxtəlif sahələrinin - təhsilin, elmin, mədəniyyətin, incəsənətin inkişafının dəstəklənməsinə yönəldilə bilər.

Əlbəttə ki, Heydər Əliyev Fondunun yarandığı zamandan bu günə qədər həyata keçirdiyi layihələr, xeyriyyəçilik əməlləri məzh nəcib əməllərin təzahürüdür.

Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir. İllərdik ki, yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci Xanımı gördüyü işlərlə mənəvi rahatlıq tapır. Bu fəaliyyət özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir. Mehriban xanım Əliyeva ”Xeyriyyəçilik fəaliyyəti müəyyən əmlakın, o cümlədən pul vəsaitlərinin verilməsi, müəyyən işlərin görülməsi, xidmətlərin təqdim edilməsi formasında həyata keçirilə bilər”, - deyərək bildirir ki, həmin fəaliyyətin nədən ibarət olmasından və məhz kimin tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, əgər əvəzsiz və könüllü şəkildə yaxşılıq edilirsə, nemətlər yaradılırsa, bu fəaliyyətin xeyriyyəçilik hesab edilməsi tamamilə düzgündür: ”Başqa sözlə desək, xeyriyyəçilik - insanların hər hansı direktivlər və göstərişlər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə öz vəsaitlərini, qüvvələrini, vaxtını və enerjisini sərf edərək gördüyü xeyirxah işlərdir”. Bu, həqiqətən də belədir. Hər bir işə, gördüyü xeyirxah əmələ görə insan ürəyini, qəlbini qoymalıdır. Bu işdə onun ruhu olmalıdır. Görüntü yaratmaq üçün deyil, qəlbin hökmünü ifadə etmək üçün nəcib əməllərə imza atmalısan.

Azərbaycan Prezident İlham Əliyev çıxışların birində qeyd etdiyi kimi, ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur: ”Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində Fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir”.

**“XEYRİYYƏÇİLİK FƏALİYYƏTİNDƏ İŞTİRAK MƏSƏLƏSİ İNSANIN RÜTBƏSİNDƏN, DƏRƏCƏSİNDƏN, VƏZİFƏSİNDƏN, MADDİ VƏZİYYƏTİNDƏN ASILI OLMAMALIDIR”**

Azərbaycanda uşaqların sağlam və gümrah böyümələri, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir, bu sahəni daim diqqət mərkəzində saxlayır. Bu sahədə görülən işləri isə sadalamaqla qurtaran deyil. Valideyn himayəsindən məhrum olunmuş uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması, cəmiyyətdə hərtərəfli inkişafı, onlara yüksək səviyyədə səhiyyə xidmətlərinin göstərilməsi Heydər Əliyev Fondunun diqqətdə saxladığı ən vacib məsələlərdəndir. Mehriban Əliyevanın sözlərinə görə. ”Xeyriyyəçilik fəaliyyətində iştirak məsələsi insanın rütbəsindən, dərəcəsindən, vəzifəsindən, maddi vəziyyətindən asılı olmamalıdır. İnsan öz xeyirxah niyyətlərini, istəklərini, imkanlarını və qabiliyyətlərini tətbiq etmək sahəsini həmişə tapa bilər”.

Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış ”Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı” çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları onlarla internat məktəbi və uşaq evləri əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. ”Təhsilə dəstək”, ”Yeniləşən məktəb” layihələri çərçivəsində yüzlərlə məktəb tikilib, təmir və bərpa olunubdur.

”Mənə belə gəlir ki, xeyriyyəçilik fəlsəfəsinin əsası, ilk növbədə, insanların yaxşılıq etməyə çalışması, başqasının dərdinə şərik olmaq, onun halına yanmaq, altruizm, ehtiyacı olanlara kömək əli uzatmaq istəyi kimi insani keyfiyyətlərin və qabiliyyətlərin fundamental xarakterinin qəbul edilməsidir, - deyir Mehriban Əliyeva. Onu da qeyd edir ki, mənəviyyatın ali qanunlarına görə, xeyriyyəçilik fəaliyyətinin əsas motivi şəxsən özün üçün hər hansı dividendlər və ya səmərə gözləmək deyil, məhz insanlara sevgi və təmənnasız olaraq xeyirxah işlər görmək arzusundan ibarət olmalıdır: ”Əlbəttə, xeyriyyəçilik fenomeninə geniş ictimai nöqteyi-nəzərdən, cəmiyyətin öz rifahı naminə xüsusi bir fəaliyyət kimi yanaşsaq, onun tarixən formalaşmış, öz yeri və fəaliyyət xüsusiyyətləri ilə fərqlənən sosial institut olduğunu görərik”.

Son illər Bakıda və regionlarda dini ziyarətgahların, ibadət yerlərinin tikintisi və mövcud olanların yenidən qurulması prosesi uğurla davam etdirilir. Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi ”Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir.

*Ardı Səh. 4*

# Heydər Əliyev Fondunun xeyriyyəçilik əməlləri nəcib əməllərin təzahürüdür

## İlham Əliyev: “Ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur”













Əvvəli Səh. 3

Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində ”Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur. Qədim məscidlərimizin bərpası, yeni müasir məscid komplekslərinin inşası bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

### “BU GÜN HEYDƏR ƏLİYEV FONDU QARŞISINDA YENİ VƏZİFƏLƏR DAYANIR”

Cənab Prezident Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri olduğunu bildirib: ”Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir”.

”Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır” - deyən Cənab Prezident ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fondun azad edilmiş torpaqlarda geniş fəaliyyətə başladığının diqqətə çəkib: ”Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, Fond digər layihələrdə də fəal iştirak edəcək”.

Xatırladaq ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etmişdi. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə regionda icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Hazırda bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib. Abidələrin yenidən qurulması zamanı onların ilkin, yəni autentik simasının pozulmaması prinsipi əsas götürülür.

Görülən işlər Heydər Əliyev Fondunun prezidentinin xeyriyyəçilik, nəcib əməllərinə söykənir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Örnək olan zəngin və mənalı həyat yolu



*"Azərbaycanın elmini, təhsilini, səhiyyəsini, iqtisadi potensialını və sənayesini yaratmış insanlar Azərbaycanın bugünkü müstəqilliyinin bünövrəsini qoymuşlar"*

***Ulu Öndər Heydər Əliyev***

Əsrlərə söykənən Azərbaycan tarixinin keşməkeşli zamanında böyük İNSANlar, şəxsiyyətlər, ziyalılar nəsli yetişmiş və hər birinin bu məmləkətin inkişafında, xalqın maariflənməsində, işıqlı gələcəyimizə böyük töhfələri olmuşdur. Belə insanlar bizim yaddaşımıza, tariximizə elə silinməz izlər salıb ki, onların keçdiyi həyat yolu, elmi fəaliyyətləri, tarixi sima olaraq ictimai-siyasi həyatdakı rolları hər zaman xatırlanır, hətta nümunəvi bir ömür olaraq yolumuzda bir mayakdır. Zəngin tariximizin hər əsrində, onilliyində belə sayseçmə insanlar olub ki, onların bəşəri hissləri, əməlləri məhz Azərbaycan adlı bir məmləkən tanınmasında, var olmasında müstəsnadır. Hər bir sahədə əldə etdikləri uğurları, elmi nailiyyətləri, novatorluqları, dəsti-xəttləri ilə yanaşı, nəcib əməllərini də üzə çıxarıb. Çətin illərdə yaşamış insanların fədakar ömürləri neçə-neçə nəslə nümunəyə çevrilib. Azərbaycanın sədaqətli övladı, görkəmli dövlət və elm xadimi, akademik Əziz Əliyevin adı da əbədi olaraq əməllərinin işığında tarixiləşdi. Müasirləri onu "Cəmiyyətin təbibi" adlandırırdılar. Ulu Öndər Heydər Əliyev görkəmli dövlət, ictimai və elm xadimi Əziz Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində çıxışı zamanı vurğuladığı kimi, "İndi biz azad insanlarıq. O illərdə çalışan, Azərbaycanın elmini, təhsilini, səhiyyəsini, iqtisadi potensialını və sənayesini yaratmış insanlar Azərbaycanın bugünkü müstəqilliyinin bünövrəsini qoymuşlar. Biz onları unutmamalıyıq, onları xatırlamalı, onların xidmətlərini lazımınca qiymətləndirməliyik. Bu adamlar arasında Əziz Əliyev də var".

Bəli, imzası ilə tanınan və şöhrətlənən Əziz Əliyev. Zəngin fəaliyyəti, zəhməti, əməyi və istedadı ilə özünə həmişə oxunacaq bir tərcümeyi-hal yazdı. Əziz Əliyev 1897-ci il yanvar ayının 1-də qədim Azərbaycan torpağı olan İrəvan quberniyasının (İrəvan xanlığının) Hamamlı kəndində anadan olmuşdur. İbtidai və orta təhsilinin bir hissəsini həmin kənddə, bir hissəsini Rusiyada gimnaziyada, daha sonra isə İrəvandakı kişi gimnaziyasında almışdır. Həmin vaxtlar Əziz Əliyevin bibilərindən Göyçək xanım ailəsi ilə birlikdə Rusiyada şəhərində yaşayırdı və o, bir müddət bibisigildə qalıb təhsilini orada davam etdirmişdir. Əziz Əliyev 1914-cü ildə yay tətili günlərində İrəvana gəlir. Lakin I Dünya müharibəsinin başlanması ilə əlaqədar yollar bağlandığına görə geri qayıda bilmir. Odur ki, İrəvan gimnaziyasında oxuyaraq, 1917-ci ildə oranı əla qiymətlərlə başa vurur.

## "GƏNCLİK İLLƏRİNDƏ BUNU HEÇ DƏ HƏR KƏS BACARMAZDI, HEÇ DƏ HƏR KƏS BU QƏDƏR MƏQSƏDYÖNLÜ OLA BİLMƏZDİ"

Onun uşaqlıq illərindən arzusu həkim olmaq idi. Arzusuna çatmaq üçün maliyyə köməyi baxımından xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə müraciət etmişdir. H.Z.Tağıyevdən maliyyə dəstəyi aldıqdan sonra 1917-ci ildə Sankt - Peterburqa gedib orada dünyanın ən məşhur tibb ocaqlarından olan Hərbi Tibb Akademiyasına daxil olmuşdur. "İrəvanda rus gimnaziyasında təhsil almaq və oranı qızıl medalla bitirmək, gənc ikən kömək üçün milyonçu Hacı Zeynalabdin Tağıyevə müraciət etmək, ondan bu köməyi almaq və bütün dünyada məşhur olan Hərbi Tibb Akademiyasında ali tibb təhsili almaq üçün Peterburqa getmək - gənclik illərində bunu heç də hər kəs bacarmazdı, heç də hər kəs bu qədər məqsədyönlü ola bilməzdi" - deyə Ulu Öndər Heydər Əliyev bildirmişdir: "Başqa sözlə, bu qeyri-adi istedadı İlahidən gələn insan özünün məqsədyönlüyü, fədakarlığı, zəhmətsevərliyi, biliklərə can atması sayəsində çox şey qazanmış, hərtərəfli insani keyfiyyətlər əldə etmişdir". Təhsil aldığı illərdə dərsdənkənar vaxtlarda səpgili yatalaq əleyhinə təşkil edilmiş sanitariya - dezinfeksiya briqadasında işə düzələrək həm praktik tibbi vərdişlərə yiyələnmiş, həm də aldığı maaşla özünün və ailəsinin minimal xərclərini ödəyə bilmişdir. Tərcümeyi-halında qeyd olunduğu kimi, birinci kursu müvəffəqiyyətlə başa vurduqdan sonra gənc Əziz Əliyev 1918-ci ilin yay tətili günlərində doğma yurdu İrəvana qayıtmış və erməni daşnaklarının yerli əhalinin başına gətirdikləri işgəncələrin canlı şahidlərindən olmuşdur. Ulu Öndərin bildirdiyi kimi, "Əziz Əliyev İrəvanda anadan olmuş və artıq 1918-ci ildə özü və bütün ailəsi soyqırımına, deportasiyaya məruz qalmışdır. O, ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımını çox gənc yaşında özü görmüş və doğma diyarını tərk edərək, Naxçıvana, oradan da Bakıya köçməyə məcbur olmuşdur". Bir müddət Naxçıvanın Şərur rayonunda və Şahtaxtı kəndində məskunlaşan didərginləri burada da sakit buraxmayıblar və erməni-bolşevik dəstələri Naxçıvana silahlı basqınlar edərək qırğınlar, dağıntılar törədiblər. Azərbaycan xalqı erməni-bolşevik dəstələrin törətdiyi qırğınlara dəfələrlə məruz qalmış və onun əziyyətini yaşamışdır. Xalqımız 1918-ci ildə soyqırımlarına məruz qalıbdır. "Sonra Ermənistanda yaşamış azərbaycanlıları 1948-ci ildən etibarən, Stalinin xüsusi qərarı ilə və yenə də Mircəfər Bağırovun iştirakı ilə zor gücünə Azərbaycana deportasiya etmişlər" - deyən Ulu Öndər Heydər Əliyev birinci deportasiyanın ötən əsrin əvvəllərində başlandığını bildirib: "1918-ci ildə Əziz Əliyevin ailəsi soyqırımına məruz qalaraq deportasiya edilmişdir. Onun orada qalan nəsilləri 1948-1953-cü illərdə köçürülmüşlər. Ermənistanda qalanlar isə 1988-ci ildə Ermənistanla Azərbaycan arasında münaqişə başlandıqda gözümçıxdıya salınmış, məhv edilmiş, zorla aradan çıxarılmışlar".

## BÜTÜN HƏYATINI ELMİ AXTARIŞLARA HƏSR EDƏN BÖYÜK ZİYALI

Əziz Əliyev 1923-cü ildə yarımçıq qalmış ali tibb təhsilini davam etdirmək ümidilə ailəsini də götürüb Bakıya köçür. O, Bakıya gələn kimi Xalq Komissarları Şurasında işə düzəlir və tapşırılan bütün işləri müvəffəqiyyətlə yerinə yetirir. Orada o, iş icraçısı, ümumi şöbə müdirinin müavini, katib köməkçisi və katib vəzifələrində çalışaraq, özünü bacarıqlı təşkilatçı kimi göstərir. 1923-cü ildə yenidən imtahan verərək, Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olur. 1927-ci ildə arzusunda olduğu ali tibb təhsilini başa çatdırır. Elə həmin ildə Xalq Komissarları Şurasının göndərişi ilə klinikada elmi-pedaqoji işə başlayır. O, bu dövrdə də özünü bacarıqlı təşkilatçı kimi göstərir. 1928-ci ildə Xalq Səhiyyə Komissarlığında müalicə şöbəsinin müdiri vəzifəsinə işə götürülür. 1929-cu ildə isə Azərbaycan Klinik İnstitutunun direktoru vəzifəsinə təyin edilir və 1932-ci ilə qədər bu instituta rəhbərlik edir. Bakı Dövlət Universitetinin tibb fakültəsi öz fəaliyyətini dayandırdıqdan sonra, 1930-cu il may ayının 9-da bu fakültənin nəzdində Azərbaycan Dövlət Tibb İnstitutu yaradılır. 1932-ci ildə isə Azərbaycan Tibb İnstitutunun direktoru vəzifəsi Əziz Əliyevə tapşırılır və o, 6 ilə yaxın bir müddətdə bu funksiyanı şərəflə yerinə yetirir. Azərbaycan Tibb Universitetinin inkişafı və təşəkkülü bir neçə mərhələyə bölünür. Bu inkişafın ilk mərhələsi 1932-1938-ci illəri əhatə edən Əziz Əliyev mərhələsidir.

Xatırladaq ki, respublikamızda ilk tibbi kitabxananın banisi Əziz Əliyevdir. Görkəmli alim ümumiyyətlə, bütün şüurlu fəaliyyəti dövründə tibb nəşriyyatı yaratmağın, onu təkmilləşdirmək və inkişaf etdirməyin yolları haqqında düşünüb. O, bu sahədəki ideyalarını tədricən həyata keçirməyə başlayıb və institut kollektivinin köməyi ilə 1934-cü ildə "Tibb nəşriyyatı" yaradıb. Professorun təşəbbüsü və redaktorluğu ilə ilk dəfə olaraq "Praktiki və nəzəri tibb jurnalı"nın nəşrinə başlanılıb. O, 1929-cu ildən etibarən "Azərbaycan Tibb Jurnalı"nın məsul katibi vəzifəsində çalışıb. 1933-cü ildə yenə də Əziz Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin nəşrinə başlanıb. Hazırda bu qəzet "Təbib" adı ilə ATU-nun nəşriyyatında çap olunub fəaliyyətini davam etdirir.

Əziz Əliyev bütün həyatı boyu elmi axtarışlarını bir an belə dayandırmayıb. O, institutu bitirəndən 2 il sonra - 1929-cu ildə namizədlik dissertasiyası, 5 il sonra isə doktorluq dissertasiyası müdafiə edib. 1933-cü ilin avqust ayında Almaniyada elmi ezamiyyətdə olub. Oradan qayıtdıqdan sonra doktorluq dissertasiyasını müdafiə edib. Azərbaycandan ilk dəfə bu dissertasiya işi SSRİ Elmlər Akademiyasının və ÜİLKGİ Mərkəzi Komitəsinin mükafatına layiq görülən dəyərli elmi əsər kimi qiymətləndirilib. Əziz Əliyev 1941-ci ildə Azərbaycan SSR xalq səhiyyə komissarı işləyərkən SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru olarkən professor vəzifəsinə seçilib. Əziz Əliyevin Azərbaycan Dövlət Tibb İnstitutuna rəhbərlik etdiyi dövrdə yazdığı "Klinik analizlər" kitabı tələbələr və gənc həkimlər tərəfindən rəğbətlə qarşılanıb və onların stolüstü kitablarından birinə çevrilib. Onun bir neçə elmi əsəri "Azərbaycan Tibb Jurnalı"nda çap edilib. İlk illərdə çap edilənlərə "Həzm zamanı qanın xloridləri", "Malyariyanın Karno metodu ilə müalicəsi", "Klinik analizlər üzrə rəhbərlik" əsərlərini misal göstərmək olar.

Maraqlı faktlardan biri də budur ki, Əziz Əliyev 1934-cü ildə Bakıda səhiyyə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə Bakı şəhər səhiyyə şöbəsinin müdiri vəzifəsinə təyin edilib, bir neçə aydan sonra o, qarşısına qoyulan məqsədə nail olub və yenidən Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru vəzifəsinə qaytarılıb. Göründüyü kimi, görkəmli alimin fəaliyyət dairəsi olduqca rəngarəng və çoxcəhətli olub. O, müəyyən müddətdə Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru olmaqla yanaşı, Əczaçılıq İnstitutuna da rəhbərlik edib və 1937-ci ildə eyni zamanda Bakı Dövlət Universitetinin rektoru vəzifəsində çalışıb. İkinci Dünya müharibəsi illərinin əvvəllərində isə alay polkovniki rütbəsində siyasi rəhbər kimi Cənubi Azərbaycana göndərilib.

Əziz Əliyevin tərcümeyi-halından oxuyuruq ki, o, 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışıb və bu vəzifələrdə də özünü bacarıqlı dövlət xadimi kimi göstərə bilib. Professor 1949-1950-ci illərdə Moskvada ÜİK (b) P MİK-nın təlimatçısı, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini olmuşdur. Əziz Əliyev I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR-in Ali Sovetinin deputatı olmuşdur. Xatırladaq ki, həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı olan Əziz Əliyev dövlət xadimi, nazir, Dağıstanın birinci rəhbəri olmuşdur. Əziz Əliyevin Dağıstan xalqının tarixində misilsiz xidmətləri olub. 1942-1949-cu illərdə Dağıstana rəhbərlik etmiş Əziz Əliyev burada yerli əhaliyə qarşı həyata keçirilən siyasi repressiyalara son qoyulmasına, yerli hakimiyyət orqanlarına dağıstanlıların təyin edilməsinə nail olub. Əziz Əliyevin sayəsində dağıstanlılar bir çox digər xalqlar kimi sürgün olunmayıblar.

## QƏLBLƏRDƏ ƏBƏDİ YAŞAYAN ÖMÜR

Görkəmli dövlət xadiminin vətən və xalq qarşısındakı misilsiz xidmətləri yüksək qiymətləndirilib. O, iki dəfə "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, "I Dərəcəli Vətən Müharibəsi" ordeni, "Səhiyyə Əlaçısı" döş nişanı, bir çox medallar, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illik" xatirə medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilib. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR əməkdar həkimi" fəxri adı verilib. Hazırda Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakının mərkəzi küçələrindən biri, Mahaçqalada bir küçə, Dağıstanda bir sovxoz, Kaspiyskidə bir tibb məktəbi Əziz Əliyevin adını daşıyır. Akademik M.Topçubaşov Əziz Əliyev haqqında xatirələrində belə yazır: "Qəribə oğlan idi Əziz. Təhsildə, əxlaqda, mülayimlikdə, xeyirxahlıqda, işgüzarlıqda tayı-bərabəri yox idi. Təbabətin atası Hippokrat elə bil həkim haqqında andı onun kimilərinə baxıb yazmışdır". Əziz Əliyev həyat yoldaşı Leyli xanımla birgə böyütdükləri övladlarına layiqli valideyn olublar. Onların övladları da öz istedadları, bacarıqları hesabına ucalıblar. Bu ailənin övladlarından böyük alim Zərifə Əliyeva Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra həyatını bütünlüklə Azərbaycanda oftalmologiya elminin inkişafına, bu sahədə yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasına, müalicəyə ehtiyacı olan saysız-hesabsız xəstələrin şəfa tapması üçün çalışıb, onlara nur, şəfqət bəxş edib. Əziz Əliyevin digər övladları da Azərbaycan tibb elminə, musiqisinə töhfələr vermişlər. 1962-ci ilin iyul ayının 27-də Əziz Əliyev vəfat etmiş Fəxri xiyabanda dəfn olunmuşdur. Onu xatirəsi qəlblərdə əbədi yaşayır və yaratdığı məktəbdən neçə-neçə insanlar bəhrələnibdir. Zəngin və mənalı həyat yolu bir örnəkdir və həmişə örnək olaraq qalacaqdır.

***Zümrüd BAYRAMOVA***

# Ermənistan prezidentinin istefasının PƏRDƏARXASI

**_Ötən il Ermənistanda keçirilən növbədənkənar parlament seçkiləri görünür bütün suallara cavab vermədi və bu işğalçı ölkədə ciddi daxili siyasi böhrandan çıxa bilmədi. Bu, yenicə istefa verən Ermənistan prezidenti Armen Sarkisyanın bəyanatından da aydın şəkildə bəlli olur və bu istefa, əslində həqiqətən də Ermənistandakı vəziyyəti səciyyələndirir._**



Heç kim üçün sirr deyildi ki, Ermənistan prezidenti Sarkisyan bu ölkədə siyasi fiqurdan başqa bir şey deyildi. Qərarların qəbul edilməsində də Sarkisyanın rolu yox idi, hadisələrə müdaxilə etmək kimi bir şansından da danışmağa dəyməz. Erməni prezidentin bu ölkədəki rolu İngiltərə Kraliçasının rolundan zərrə qədər fərqlənmirdi və onun varlığı sanki simvolik xarakter daşıyırdı. Məhz bu baxımdan onun istefası çoxdan gözlənilirdi və bu istefanın heç kimdə təəccüb doğurmaması özü də deyiləni təsdiqləyir. Uzaq başı insanları təəccübləndirən Ermənistan prezidenti Armen Sarkisyanın öz vəzifəsindən istefası barədə bəyan etməsinin belə gec baş verməsi ola bilər.

Doğrudur, Ermənistan müxalifəti hesab edir ki, Sarkisyan prezident institutunu hakimiyyəti cilovlayan mexanizmə özü çevirə bilməyib. Müxalifət fraksoyasının rəhbəri Seyran Ohanyan bəyan edib ki, Armen Sarkisyan sadəcə tezliklə başlaya biləcək xarici və daxili siyasi proseslərdən yayınmağa çalışır. Onun sözlərinə görə, Sarkisyan öz öhdəliyini yerinə yetirə bilmədi. Ohanyan eyni zamanda Sarkisyanın məhz xaricdən istefa verməsinə təəssüfləndiyini də bildirib və qeyd edib ki, Armen əgər nəyisə sübut etmək istəyirdisə, burada olmalı, fəaliyyətini də davam etdirməli idi. Lakin gəlin görək, Ermənistan prezidenti fəlaiyyətini davam etdirə bilirdimi, yaxud bu fəaliyyəti davam etdirmək üçün ona imkan verilirdimi? Verilmirdi və Ermənistanın baş naziri Nikol Paşinyan bütün səlahiyyətləri öz əlində cəmləşdirmişdi və bu səlahiyyətləri Armen Sarkisyana vermək fikrində də deyildi, hərçənd bu barədə söz də verməşdi.

Ermənistan cəmiyyətində Armen Sarkisyanın istefası ciddi rezonans doğurduğu artıq özünü göstərməkdədir. Təkcə müxalifət fraksiyasından olan Seyran Ohanyan deyil, "Vətəndaş müqaviləsi" partiyasından olan deputat Xaçatur Sukiasyan da onun istefasına münasibət bildirməkdən çəkinməyib və Ermənistan prezidentini, onun bu addımını lağa qoyub. "Prezident kimi fəaliyyətə başlamazdan əvvəl Armen Sarkisyan konstitusiya ilə tanış olmalı idi", deyən Sukiasyan bildirib ki, Armen Sarkisyanın bu vəzifəyə başlayanda da konstitusiyaya görə məhdud səlahiyyətlərə malikdir olduğunu bilirdi. Sukiasyan sual edir ki, niyə Sarkisyan dörd ildən sonra səlahiyyətlərinin olmamasını səbəb gətirərək belə bir qərara indi gəlməli oldu?

Təbii ki, Armen Sarkisyanın öz istefası barədə bəyan etməsi səbəbsiz deyil və bu məsələni Ermənistan cəmiyyətinin öz maraqları kontekstində izah etməsi də anlaşılandır. Amma biz heç də demirik ki, erməni cəmiyyətində deyilən bütün bunlar tam reallığı əks etdirir. Səbəblər əlbəttə çox ola bilər, amma əsas səbəb bu işğalçı ölkədə qarışıqlığın, xaosun, hərcmərciliyin, hakimiyyətsizliyin olması, qanunların işləməməsidir, hansıki Armen Sarkisyan özü də bundan çıxış yolunu tapa bilməyib. Əksinə, Sarkisyanın yeni seçki kampaniyası və yeni vəzifədə yeni səlahiyyətlər şansı olması arzusu var və Ermənistan prezidentinin indi malik olduğu nominal deyil, o real hakimiyyəti əldə etmək barədə də düşünür. Həmçinin, Armen Sarkisyan Nikol Paşinyanın bütün güc rıçaqlarına malik olmasından və baş nazirin hərəkətlərinə görə çoxlu sayda neqativlərin məhz Ermənistan prezidentinin üzərinə düşməsindən çox qorxur və ən azından bundan boyun qaçırır. Yəni, Ermənistanda ciddi daxili siyasi böhran fonunda Sarkisyan Paşinyan üçün reputasiya xərclərini çəkməyə hazır da deyildi, razı da.

Prezidenti Armen Sarkisyan və baş nazir Nikol Paşinyan arasında konstitusiya islahatları məsələsində fikir ayrılığının olduğu məlum məsələ idi. Bunu erməni cəmiyyəti də bilirdi. İndi Ermənistan prezidentinin istefası barədə bəyan etməsi məhz bu cəmiyyətdə fikir ayrılıqları ilə də izah olunur. Bəzi ermənilər hesab edirlər ki, prezidentlə baş nazir arasında olan fikir ayrılıqları dövlət başçısının istefası ilə nəticələnib. Sözsüz ki, Sarkisyan tərəfindən bu qərarın hökumət başçısına qarşı çıxmaq üçün siyasi iradəsinin olmaması səbəbindən verildiyi də istisna edilmir. Yəni, Armen fəaliyyətdə olduğu dörd il ərzində ancaq Nikolun qərarlarını təsdiqləməkdən başqa özündə bir iradə tapa bilməyib və bunu az qala hər kəs bilir.

Ermənistan prezidenti Armen Sarkisyanın qəflətən istefa verməsinin ətrafında müxtəlif mülahizələr, fikirlər səsləndirilir, hansıki, əsas motiv olaraq onun açıqlamış olduğu bəyanatda da vurguladığı kimi, daxili və xarici siyasətə təsir imkanlarının məhdud olmasıdır. Diqqətə çatdıraq ki, Sarkisyanın göstərdiyi səbəb, eləcə də dövriyyəyə buraxılan mülahizələr bir növ, aysberqin görünən hissəsi, suyun üzündə olan tərəfidir. Erməni siyasətinin dərin qatlarında nələrin baş verdiyi haqqında informasiya hələlik məhduddur və aysberqin suyun altında qalan üçdə iki hissəsində hələ nələr olduğu bir müddətdən sonra ortaya çıxacaq, eyni ilə erməni yalanları kimi. Ancaq, hələlik ortada bir sıra məqamlar var və bu məqamlar Ermənistan prezidentinin istefası barədə bu addımı barədə düşündürür.

Öz istefasını bəyan etdiyi zaman Sarkisyan açıq-aşkar şikayətlənir ki, Ermənistan formaca parlament respublikasıdır, ancaq mahiyyət tam fərqlidir. Bir sözlə, bu işğalçı ölkədə prezident səviyyəsində etiraf olunur ki, qanunlar kobud şəkildə pozulur, onlara əməl edilmir, forma ilə məzmun arasında kəskin fərq var. Yəni, bu erməni prezident tam aydın şəkildə bildirir ki, prezident və hökumətin səlahiyyətləri arasında dizbalans var, qrumlararası ahəng də yoxdur və bu, dövlət idarəetməsində ugur qazanmaga imkan verə bilməz. Sarkisyan dövlət idarəetməsində ikibaşlılığın siyasi menecmentliyin qarşısında ciddi problem olduğunu da önə çəkir. Əslində, sadalananlar Armen Sarkisyanın haqlı oldugu məqamlardır və Ermənistanda hansı ikibaşlı hakimiyyət olduğu sirr də deyil. Ermənistan konstitusiyasında belə bu ölkənin prezidentinin məhdud səlahiyyətləri göstərilərək onun abstrakt mahiyyət daşıdığı rəsmi şəkildə qeyd olunur və məlum məsələdir ki, bu minvalla prezident müxtəlif siyasi təmayüllərin hədəfinə çox rahat gəlir, hansıki bununla Sarkisyan gec də olsa razılaşmaqdan imtina etmək qərarına gəldi.

Belə bəlli olur ki, Nikol-Armen mübarizəsində birinci qalib gəldi və Ermənistan prezidenti öz məğlubiyyəti ilə barışmalı oldu. Baxmayaraq ki, 44 günlük müharibədən sonra Armen Sarkisyan xüsusilə aktivləşmişdi və öz aktivliyi ilə də erməni baş nazirin qərarlar qəbul etməsində hardasa problemlər yaradırdı, sonda bu mübarizədən Nikol Paşinyan qalib çıxdı. Ən azından belə görünür ki, Armen Sarkisyan öz vəziyyəti ilə barışmadı, baxmayaraq ki, Nikol ona səlahiyyətlərini artıracağını söz vermişdi. Çünki, Sarkisyan başa düşdü ki, Paşinyan onu aldadır və səlahiyyətlərinin artırılması vədi sadəcə onu "yola gətirmək" üçündür.

Bilirik ki, Paşinyan dırnaqarası islahatlara, xüsusilə konstitusiya islahatlarına hazırlaşır və bu dəyişikliklərdə prezident səlahiyyətlərinin artırılması da onun planında olub. Əslində, onun planında olan Sarkisyanın səlahiyyətlərini artırmaq yox, öz məqsədləri durur. Bu avantürist yaxın zamanda səlahiyyətləri artırılan və hətta bütün səlahiyyətləri ələ keçirən bir prezident olmaq niyyətindədir və indi Sarkisyanın istefası bu planının gerçəkləşəcəyi barədə Nikolun ümidlərini bir qədər də artırıb. Bu baxımdan Sarkisyanın istefasında Paşinyanın barmağının olduğu da inandırıcıdır və çox güman ki, geniş səlahiyyətlər əldə etmək planını tezləşdirmək üçün Nikol Armeni istefaya məcbur edib. Bu həm də özünü Ermənistan prezidentinin, "reallıq budur ki, dövlət başçısı, bəzən ailəsi müxtəlif siyasi qrupların hədəfində olur", ifadəsində də təsdiqləyir. Dolayısı ilə Sarkisyan bildirmiş oldu ki, onun ailəsi belə hədəfə alınıb və buradan da nəticə hasil olur ki, Ermənistan prezidentinə ailəsi üzərindən belə təzyiq edilib.

Sarkisyan gec də olsa başa düşdü ki, onun prezident kim fəaliyyətini davam etdirməsi nəticədə baş nazir Nikol Paşinyanın oyunlarına ortaq olmaq kimi qiymətləndiriləcək. Səlahiyyətlərinin olmaması, yaxud məhdud olması fonunda bir də oyunlara, Paşinyan kimi hiyləgərin oyunlarında günahkar olmamaq üçün Sarkisyan sadəcə oyundan qaçdı. Eyni ilə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru, "Vətən" partiyasının lideri Artur Vanesyan və onun timsalında istefa verən digərləri kimi, qaçıb yaxasını kənara çəkməyi tərcih etdi. Elə məhz budur əslində erməniləri özündən çıxaran, çünki onlar öz oyunlarını, oyunbazlıqlarını hamıdan yaxşı başa düşürlər, çünki oyunu quran da, oyunçu da özləridirlər. Paşinyanın isə "inqlan" adlandırdığı çevriliş zamanı da, ondan sonra da oynadığı oyunları şeytan belə oynaya bilməzdi və bunu yaxşıca dərk edən Sarkisyan qaçıb aradan çıxmağı doğru yol saydı.

***İnam Hacıyev***

# YAP Gənclər Birliyinin təşkilatçılığı ilə "Viki Klub" layihəsinə start veriləcək

**Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi tərəfindən dünyanın ən böyük elektron ensiklopediyası hesab olunan Vikipediya platformasında Azərbaycanla bağlı mövcud məlumatların təkmilləşdirilməsi, təhrif olunmuş məlumatlara düzəlişlərin edilməsi və bu istiqamətlərdə fəaliyyət göstərən peşəkar şəxslərin sayının artırılması məqsədi ilə "Viki Klub" layihəsi həyata keçiriləcək.**

"Qorqud" Vikipediya metodik klubunun tərəfdaşlığı ilə baş tutacaq layihə çərçivəsində peşəkar Vikipediya təlimçiləri tərəfindən İKT sahəsindəki bilik və bacarıqları nəzərə alınmaqla seçilmiş 30 nəfər gənc 10 hissəli təlim prosesinə cəlb olunacaq. Təlimlərin yekununda layihə iştirakçıları tam şəkildə Vikipediya platforması üzərində yeni məqalələrin yaradılması, düzəlişlərin edilməsi və s. bacarıqlara yiyələnmiş olacaqlar.

İlkin olaraq 30 gəncin iştirakı ilə formalaşdırılacaq klub mütəmadi olaraq ölkəmizlə bağlı yeni məqalələrin hazırlanıb yerləşdirilməsi, o cümlədən mövcud yazıların təkmilləşdirilməsi prosesini həyata keçirəcək. Klubun fəaliyyətinə dair mütəmadi olaraq hesabatlar hazırlanacaq.




Layihəyə müraciət üçün qeydiyyat linki: https://bit.ly/3GYWKyi

Müraciət üçün son tarix: 03.02.2022-ci il, saat 12:00

Layihə ilə əlaqədar suallarınızı email ünvanına göndərə bilərsiniz: gencler_birliyi@yap.az

#YAP #YAPGB

# Hamımızın gözü aydın olsun - CƏMİYYƏTİN BAXIŞI

Bu gün işğaldan azad edilmiş torpaqlarımızın hər birində cənab Prezidentin verdiyi təlimatlar əsasında yenidənqurma, abadlıq işləri aparılır. Yeni yaşayış binaları, mədəniyyət evləri, təhsil kompleksləri tikilir. Gəliş-gedişi təmin etmək üçün yollar səliqəyə salınır. Artıq bu gündən etibarən mədəniyyətimizin beşiyi sayılan gözəl Şuşamıza, eləcə də işğaldan azad olunmuş digər ərazilərimizə ilk avtobus reysləri fəaliyyət göstərməyə başlayıb. Bəs görəsən şəhər sakinlərimizin bu sevindirici xəbərə münasibətləri necədir? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:



**Şəhər sakini Eldar Yusifov:** "Sevindirici haldır ki, artıq Şuşaya avtobuslar fəa-



liyyət göstərir. Xalqımızın gözü aydın olsun. Neçə ildir ki, həsrətlə gözlədiyimiz vaxt gəlib çatıb. Yurdunu görmək istəyənlər artıq rahat bir şəkildə gedib ziyarət edə bilərlər".

**Şəhər sakini İradə İlyasova:** "Şükürlər olsun ki, bu günləri də gördük. Düşünürəm ki, qiymətlər də münasibdir. Rahatlıqla Şuşaya gedib-gəlmək olacaq. Şuşalı vətəndaşlarımıza də göz aydınlığı verirəm. İnşAllah di-



gər bölgələrimizə də gediş-gəliş üçün nəqliyyat vasitələri açılar".

**Şəhər sakini Məhəmməd Ağayev:** "Təbii ki, çox gözəl bir hadisədir. Hamımızın gözü aydın olsun. Qarabağlıları təbrik edirəm. İnşAllah yaxın zamanda digər ərazilərə də avtobuslar fəaliyyət göstərər. Düşünürəm



ki, qiymətlər də münasibdir. İstəyən könül rahatlığı ilə öz Vətənini gedib görə bilər".

**Şəhər sakini Leyla Ağayeva:** "Əlbəttə, çox sevindirici bir haldır. Neçə ildir biz torpaqlarımızın işğaldan azad olmağını gözləmişik.



Torpaqlarımız işğaldan azad edildikdən sonra qısa bir zamanda həmin ərazilər təmir edildi. Düzdür bəzi bölgələrdə hələ də quruculuq işləri davam edir. Amma düşünürəm ki, qısa zamanda Qarabağ bölgəmiz cənnətə çevriləcəkdir".

**Şəhər sakini Əli Mehdizadə:** "Hesab edirəm ki, bu hələ başlanğıcdır. Gün gələcək bütün işğaldan azad



edilmiş rayonlarımıza rahatlıqla gedib-gələcəyik. Bütün həmvətənlərimi təbrik edirəm".

**Şəhər sakini Nərgiz Hüseynli:** "Mən Şuşalıyam. Bu mənim üçün olduqca sevindiririci haldır. Şükür bu



günləri də gördük. Neçə ildir bu günü gözləyirdim. Həmişə deyirdim ki, kaş Şuşamın işğaldan azad olduğu günləri görərdim".

***Abutel İlhamqızı***

ANALİTİK+AKTUAL

# Ermənistanın prezidenti istefa verdi: nə dəyişəcək və dəyişməyəcək?

Ölkənin qarşısında daha vacib məsələlər dayanır və bu məsələlər həll olunmazsa Ermənistan hansı üsul-idarə formasına malik olmasına baxmayaraq tənəzzülə uğramaqda davam edəcək

**Beləliklə, Ermənistanın prezidenti Armen Sarkisyan istefa verdi və bu istefanın baş verməsi səbəblərini də göstərdi. Qeyd etdi ki, onun prezidentlik fəaliyyəti ölkənin siyasi arealına təsirsizdir və vəzifəsinin icrasında hər hansı əhəmiyyət görmür, yəni səlahiyyətləri buna imkan vermir. Nəticədə ölkədə yeni prezidentin seçilməsi üçün mövcud mexanizmlərin işə salınacağı gözlənilir.**



Ölkə konstitusiyasına görə, prezidentin istefa verdiyi halda növbəti prezident seçkiləri istefadan 35 gündən gec olmayaraq keçirilməlidir. Yeni seçiləcək prezident isə parlament tərəfindən müəyyən ediləcək və vəzifəsində yeddi il qalacaq. Eyni şəxs isə ikinci dəfə prezident seçilə bilməz. Bütün bunlar öz yerində. Bəs Armen Sarkisyan istefa verərkən hələ vəzifəyə yiyələndiyi zaman hansı üsul-idarə sistemində səlahiyyətlərə malik olacağını düşünmürdümü? Əlbəttə ki, düşünürdü. Lakin onun istefasının arxasında digər məqamların da dayandığını istisna etmək olmaz.

## Referendum keçirilərsə Armen Sarkisyan yeni iddialarla namizədliyini irəli sürəcək

Ermənistan KİV-lərində və siyasi-ictimai rəyində belə informasiyalar yer alır ki, ölkədə yarıprezidentlik sisteminə keçid olunacaq və bunun üçün referendum keçiriləcək. Əgər referendum keçirilərsə Armen Sarkisyanın istefası onun prezident seçkilərində iştirakına imkan verir, özü də tam səlahiyyətləri ilə. Məsələn, seçkilərə qədər yeni siyasi partiya yaratması, yaxud tərəfdarlar toplayaraq onları təsis edəcəyi siyasi blok ətrafında birləşdirməsi üçün onun kifayət qədər vaxtı və zamanı qalır. Əbəs deyil ki, Sarkisyan fəaliyyətinin son dövrlərində ardıcıl xarici səfərlər həyata keçirməklə Ermənistan üçün investisiya yatırımları əldə etməyi qarşısına məqsəd qoymuşdu. Lakin onun bu məqsədləri istədiyi kimi reallaşmasa da, fakt budur ki, Sarkisyan ölkə ictimai rəyi qarşısında özünü "işlək prezident" kimi nümayiş etdirə bilib. O cümlədən, daha bir maraqlı məqam budur ki, Armen Sarkisyan maliyyə dəstəyi qazansa da, onu baş nazir Nikol Paşinyanla bölüşdürməyi planlaşdırmır. Beləliklə o, iqtidara yiyələnməsi üçün üçüncü hökumətdaxili qüvvəyə çevrilməyi bacarıb.

## Nikol Paşinyanın planları başqadır...

Amma nəzərə alsaq ki, Ermənistanda prezidenti yuxarıda da xatırlatdığımız kimi parlement seçir, bu zaman Paşinyanın növbəti prezident namizədinin üzərində dayanacağı da şərtə çevrilir - əlbəttə ki, həmin şəxs Armen Sarkisyan olmayacaq. Yəni referenduma qədər Ermənistanın baş naziri öz əlaltılarından birini həmin vəzifəyə təyin etdirməyə çalışacaq. Hətta Paşinyana qalarsa, o, gənc, cavan şəxslərdən deyil, məhz yaşlı nəsil nümayəndələrindən birini prezident seçdirməyə çalışacaq. Bu rola hətta Paşinyanın özü kimi qərbin adamı olan Levon Ter-Petrosyan da seçilə bilər, əgər Paşinyanla aralarındakı bəzi ziddiyyətlər aradan qaldırılarsa.

Yox, əgər Paşinyan həmin vəzifəyə özünə yaxın bildiyi cavan şəxsləri seçdirmək istərsə, həmin şəxslər sırasında Ermənistanın mövcud xarici işlər naziri Ararat Mirzoyan, parlamentin spikeri Alen Simonyan, ölkənin təhlükəsizlik şurasının katibi Armen Qriqoryan da yer ala bilərlər. Bütövlükdə isə hətta referendum keçirilsə belə Ermənistanda əsas söz sahibinin yenə də Paşinyan olacağını düşünsək və ya prezident üsul-idarəsində bəzi səlahiyyətlərin prezidentə də təhkim olunacağını proqnozlaşdırsaq ölkəyə yeni prezidentin seçiləcəyi hər-hansı ciddi siyasi impulslara gətirib-çıxarmayacaq. Bu baxımdan, Armen Sarkisyanın istefası ölkə gündəmində ciddi təsir göstərməyəcək. Proseslərin dəyişilməsini isə vaxt göstərəcək. Çünki ölkənin qarşısında daha vacib məsələlər dayanır və bu məsələlər həll olunmazsa Ermənistan hansı üsul-idarə formasına malik olmasına baxmayaraq tənəzzülə uğramaqda davam edəcək.

***Rövşən RƏSULOV***

# Xəmir xörəkləri orqanizmə nə dərəcədə zərərlidir?



***"Dünyanın ən qədim və zəngin mətbəxlərindən biri Azərbaycan mətbəxidir. Hal-hazırda qış fəsli olduğu üçün insanların çoxu xəmir xörəklərə üstünlük verir. Xəmirli qidalardan çox istifadə etməyin də təbii ki, zərərləri çoxdu". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Sevinc Həsənzadə bildirib.***

Onun sözlərinə görə, xəmir karbohidratdır, şəkərdi, qlükozadı: "Demək olar ki, xəngəl də, pilov da, tort da eyni şeydi. Xəmir yeməkləri və şirniyyat immuniteti aşağı salır. Bu qidalar nəticəsində beyin qidalanmır. Əksinə bu qidalar beyində kütləşmə prosesinə təkan verir. Fikir verimisinizsə xəmirli qida yeyən kimi insanın yuxusu gəlir. Lakin ət və ya tərəvəz ilə qidalanan insanın beyninə oksigen və qan daha yaxşı işləyir.

İmmun sistemi insan orqanizmi üçün çox vacib amillərdən biridi. Çünki bütün xəstəliklərdən qorunmaq üçün bizə güclü immun sistemi lazım olur. İmmuniteti möhkəmləndirmək üçün birinci növbədə artıq çəkilərdən azad olmaq lazımdı. Qış fəslində immun sistemini gücləndirmək üçün ilkin növbədə balıq, quş, iribuynuzlu və xırdabuynuzlu heyvan ətlərindən istifadə etmək lazımdı. Ona görə ki, ətin tərkibində çoxlu sayda protein və dəmir var. Daha sonra qış tərəvəzləri (brokkoli, kələm, xüsusən gül kələmi) qəbul edilməlidi".

Sevil xanım eyni zamanda qeyd edir ki, immunitet sisteminin güclü olması üçün səhər yeməyi də önəmli faktorlardan biridi. Hamıya məsləhət görərdim ki, hər səhər 2 yumurta yesinlər. Çünki yumurtanın tərkibində kalsium, kalium, sink və s. digər mikro elementlər var. Bununla yanaşı vitamin A,B,C ilə zəngin olan meyvələrlə qidalanmaq məsləhət görülür. Misal olaraq alma, naringi, kivi, avakado, ananas və s. Bəzi insanların fikirlərinə görə qışda ən çox çay içmək lazımdı. Amma bu çox yalnış fikirdi. Daha çox su istifadə olunmalıdı. Suyun tərkibindəki minerallar maddələr mübadiləsini sürətləndirir. Ümumiyyətlə hər bir kəs sağlam qidalanmalıdı. Biz sağlam qidalanmadığımız halda qəbul edilən yalnış məhsullar bağırsaqdan keçərək orqanizmaya yanlış paylanılır. Bu səbəbdə bir çox xəstəliklərə yol açır.

***Banuçiçək Hüseynli***

# Dönərxanalara ət haradan gəlir?

## VACİB MƏQAMLAR



**Dönər Türkiyədən gələn və Azərbaycanda, habelə başqa ölkələrdə yayılmış "fastfood" yeməyidir. Ət layları dönən şişdə hazırlanır. Bəzi hallarda kartof, qışda isə marinadlaşdırılmış pomidor da qoyulur. 2006-cı ildə Azərbaycanda "quş qripi" ilə əlaqədar toyuq ətindən dönər qeyri-tələbatlı olub.**

Hazırda ölkəmizdə də dönər insanlar tərəfindən olduqca sevilir. Bir çox qiymətlərə dönərlər satılır. Bunun isə əsas səbəbi dönərlərdə istifadə olunan ətin mənşəyidir. Biz də SİA olaraq bu mövzuda araşdırma aparmaq üçün bir neçə dönərxanaya yaxınlaşdıq. Görək dönərxanalara ətlər haradan gəlir və ümumiyyətlə isə keyfiyyətli dönər necə olmalıdır?

**"Boğaziçi" restoranının müdiri Rasim Aslanov:** "Bizdə




ancaq toyuq dönəri verilir. Toyuqlar isə "Halal nemət, min bərəkət"dən gəlir. Sertifikatımız da, icazə kağızımız da mövcuddur. Qeydiyyatdan keçdiyimiz üçün də ayda bir neçə dəfə gəlib yoxlanış edirlər. Mal ətini isə tantuni üçün istifadə edirik. Amma mal ətini artıq özümüz qəssabdan alırıq. Amma dönəri mal ətindən vermirik. İnsanlar isə daha çox toyuq dönərinə üstünlük verir, nəinki tantuniyə. Bunun səbəbi qiymətinə görə daha sərfəli olmasıdır. Dönərlə bağlı da zəhərlənmə kimi problemlər olmayıb. Tək problem bəzən dönərlərin soyuq verilməsi ilə bağlıdır".

**"İstanbul Dönər House" müdiri Kaplan Kanber:** "Dönərlərin ətini dövlət tərəfindən sertifikatı olan firmalardan əldə edirik. İndiyə kimi də ətlərlə bağlı heç bir problem yaşanmayıb. Hətta bizim istəyimiz üzrə ət




ədviyyatlanmış, hazır şəkildə göndərilir. Qiymətlər isə toyuq dönəri 2 manat, ət dönəri isə 2.50 olaraq dəyişir. Burada isə çəkisində sadəcə olaraq 80 qr fərq olur. Alıcılar isə toyuq dönərinə daha çox üstünlük verirlər. Bu isə daha çox insanların ağız dadı ilə bağlı olan bir prosesdir. Qiymətlərdə heç bir artım gözlənilmir. Digər yeməklər üçün əti isə "Bravo" marketdən özümüz alırıq".

**"Ocaq" restoranın administratoru Musa Hüseynov:** "Dönərlərimizin əti "Halal Pak" şirkətindən gəlir. Sertifikatlarımız da mövcuddur. Ətlərin qiyməti bahalaşsa belə bunun dönər qiymətinə təsir edəcəyini zənn etmirəm. Qiymətlər isə toyuq dönər 2 AZN, ət dönər isə 2.50 AZN təşkil edir. Digər yeməklər üçün olan ətləri isə özüm alıram. İnsanlar isə qiyməti daha ucuz olduğu üçün toyuq dönərə üstünlük verirlər. Biz 15 ildir ki, fəaliyyət göstəririk, lakin dönərdən zəhərlənmə kimi hallarla qarşılaşmamışıq. Çünki dönərlərimizin əti gündəlik olaraq gəlir".




Məsələ ilə bağlı ekspert rəyini də öyrəndik.

"Ümumiyyətlə heyvanların identifikasiyası məsələsi guya nəzəri cəhətdən yerinə yetirilir, amma ortalıqda bir şey yoxdur. Yəni burada söhbət heyvanların izlənməsi məsələsindən gedir". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib.

Onun sözlərinə görə, heyvan dünyaya gəldikdən necə izləniləcəksə, ətin mənşəyi tam izlənmə altında olacaqdır: "Bu hələ 1 faiz də olsun yerinə yetirilməyib. Əlbəttə dönərxanalar əhalinin ən çox zəhərləndiyi yerlərdən biridir. Böyük şəbəkələrdən biridir. Beş il bundan öncə standartları yaradılıb. Lakin bu standartlara demək olar ki, heç kim riayət etmir. Dönərləri təzə ətdən hazırlayıb, mənfi 40 dərəcə şok dondurmadan keçirib, xüsusiləşdirilmiş avtomobillərdə dönərxanalara çatdıran iki müəssisə mövcuddur. Lakin dönərxanaların 1 faizi belə bu şirkətlərdən dönər ətini almır. Belə bir vəziyyətdə əlbəttə dönərxanalar təhlükə mənbəyi olacaqdır. Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətlərə qarşı Mübarizə İdarəsi dəfələrlə regionlarda murdar, ölmüş heyvan ətlərini, at, eşşək ətinin mövcudluğunu ifşa edib. Şübhəsiz ki, bunların böyük bir hissəsi dönərxanalara gətirilir. Bunun qarşısını almaq üçün əlbəttə heyvanların identifikasiyası keçirilməlidir. Bu təhlükəli ətlərin dönərxanalara çatdırılmasının qarşısı alınmalıdır.

Təəssüflər olsun ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ətin mənşəyini bilmək üçün əhalidən çox pul istəyir. Əgər AQTA öz laboratoriyaları ilə əhaliyə kömək etmək istəyirsə və təmannasız bunları etməsə əlbəttə biz belə ətlərin qarşısını ala bilməyəcəyik. Ən təhlükəli mənşəyi məlum olmayan ətlər dönərxanalarda realizə olunur".

Məsələ ilə bağlı iqtisadçı ekspertin rəyini də aldıq.

"Bu çox ciddi bir məsələdir. Bu həm Azərbaycan ictimaiyyətinə, eyni zamanda ekspert camiyəsini narahat edən mövzulardan biridir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Asif İbrahimov bildirib.

Onun sözlərinə görə, tez-tez eşidirik ki, hansısa ictimai iaşə obyektlərində müəyyən zəhərlənmə halları baş verir: "Hətta bəzən kütləvi zəhərlənmə hallarına belə təsadüf



olunur. Bunun səbəbi isə xüsusilə texnoloji tələblərin gözlənilməməsidir. Yəni istehsal, daşıma, logistika, anbarlaşdırma kimi proseslərdə texnoloji tələblərin gözlənilməməsidir. Bunun qarşısını isə təbii ki, almaq olar. Yəni bu dünya praktikasında tətbiq olunan qida təhlükəsizliyinin tətbiq olunması standartları mövcuddur. Məsələn, İSO 22000 standartı var. İSO 22000 standartı qida məhsullarının təhlükəsizliyinin idarə edilməsi sistemidir. Qida müəssisələrində giriş, əməliyyat və yekun nəzarəti təmin etmək üçün nəzərdə tutulmuş bir standartdır. Proseslərin nəzarət altına alınması, ölçü meyarlarının müəyyən olunması, kritik nəzarət nöqtələrinin, operativ nəzarət nöqtələrinin müəyyən olunması, məhsulda təhlükəsizlik parametrlərinin, məhsulda kimyəvi, bioloji və fiziki risklərdən qorunmasını təmin etmək üçün istifadə olunur.

Təəssüflər olsun ki, Azərbaycanda ictimai iaşə obyektlərində texnoloji tələblərə riayət olunmur. Bu da Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin məsuliyyətində olan bir məsələdir. Belə ki, 2019-2025-ci ildə qida təhlükəsizliyinin təmin edilməsi ilə bağlı dövlət proqramı qəbul olunub. Bu proqramda müəyyən boşluqlar mövcuddur. Amma buna baxmayaraq, həmin proqram bir çox məsələləri özündə əks etdirir. Bu proqramın praktiki olaraq tətbiqinin həyata keçirilməsində müəyyən gecikmələr var. Düşünürəm ki, ictimai iaşə obyektlərində, kafe və restoranlarda bu proqramın tətbiqi eyni zamanda qida təhlükəsizliyi üzrə beynəlxalq standartların tətbiq edilməsi zəruridir".





Bəs gəlin görək şəhər sakinləri döndər yedikləri halda nəyə önəm verirlər. Qiymətə yoxsa keyfiyyətə?

**Şəhər sakini Ruslan Osmanov:** "Təbii ki, əsas olan dönərin, xüsusilə də tərkibindəki ətin keyfiyyətli olmasıdır. Buna görə də sadəcə bildiyim, tanıdığım bir neçə yer var



ki, yalnız həmin yerlərdə dönər yeyirəm. Daha çox isə toyuq dönəri yeyirəm. Çünki ət dönərində ətin mənşəyi bilinmir. Təxminən həftədə 2-3 dəfə dönər yeyirəm".

**Şəhər sakini Şəhanə Səfərli:** "Dönər aldıqda ilk öncə ətin keyfiyyətinə, harada, hansı formada bişirilməsinə diqqət edirəm.



Özüm o qədər dönər yeməsəm də, uşaqlar çox sevirlər. Buna görə də dönər alan zaman hər şeyə çox diqqətlə yanaşırıq. Uşaqlar isə daha çox ət dönərini sevdikləri üçün onu alırıq.

Toyuq dönərini isə qətiyyən yemirlər. Dönərlərdən zəhərlənmələrin baş verməsində bəzən satıcılarla yanaşı alıcıların da günahı ola bilər. Xüsusilə də əgər dönər yay aylarında alınırsa. Çünki dönəri yayda alıb biraz çantada saxladıqda, yemədikdə avtomatik olaraq tərkibində olan məhsullar zəhərlənməyə səbəb ola bilər".

**Şəhər sakini Orxan Cavadov:** "Dönər aldıqda ilk öncə təmizliyə üstünlük verirəm. Yəni əgər hiss etsəm ki, natəmiz yerdir oradan heç bir formada dönər almaram. Təmizlik dedikdə isə həm məkanın, həm də dönəri hazırlayan şəxsin təmizliyi önəm kəsb edir. Daha sonra isə yeyəcəyim dönər görünüş olaraq da məni qane etməlidir. Hər yerdən dönər alıb yemədiyim üçün də zəhərlənmə kimi hallarla rastlaşmamışam. Bəzi insanlar ət dönərini çox almırlar ki, nə əti olduğu bilinmir. Yəni ən azından toyuq bildiyimiz toyuqdur. Lakin mən buna çox da fikir vermirəm. Daha çox dadına üstünlük verirəm".

**Şəhər sakini Ağca Əhmədova:**

"Ümumiyyətlə dönər alarkən qiymətinə fikir verirəm. Çünki qiyməti ucuz olan dönərlərin keyfiyyəti də yaxşı olmur. Bu cür dönərlərin ətinin mənşəyi də bilinmir. Daha sonra isə necə hazırlanmasına təmizliyinə diqqət edirəm. Daha çox isə ət dönərin üstünlük verirəm. Səbəbi isə bəlkə də ağlımızda qalıb ki, toyuq daha tez xarab olur buna görədir".

**Şəhər sakini Rəsul Məmmədov:**

"Dönər yeyirəm və əsasən də toyuq dönəri. Amma az halda dönər yeməyə üstünlük verirəm. Hansı ki, gigiyenik qaydalara tam əməl edirlər və heç bir narahatedici faktor olmur. Elə yerlər var dönər hazırlayan şəxs nə əlcək taxır, nə üstü-başı təmizdir. Bu təbii olaraq iyrənc görüntü formalaşdırır".

**Şəhər sakini Jalə Sultanova:**

"Dönərdən istifadə eləmirəm, ümumiyyətlə "fastfood" olan heç bir qida qəbul etmirəm və məsləhət də görmürəm. Ziyanlı qidalardır, orqanizmamızı elə şeylərnən niyə korruyaq ki? Əsasən ev yeməklərinə üstünlük verirəm".

**Şəhər sakini Nicat Əliyev:**

"Dönər demək olar ki, ən sevimli qidamdır. Dönər aldıqda məkanın görünüşü və səliqəsiz məni razı salırsa rahatlıqla oradan dönər ala bilərəm. Amma metroların üstündə manatlıq dönərlər olur, hansı ki, açıq şəraitdə necə və nə cür hazırlandığı məlum deyil. Əsasən ət dönərinə üstünlük verirəm. Xüsusi bir səbəbi yoxdur, sadəcə daha dadlı olur".

***Səbinə Hüseynli***



# “Fransanın Qafqazda əsas müttəfiqi Ermənistandır, prezidentin kim olmasından asılı olmayaraq...”



**Tarix elmləri namizədi, rusiyalı fransaşünas, RANEPA İctimai Elmlər İnstitutunun dosenti İqor İqnatçenko caliber.az-a müsahibəsində Fransada keçiriləcək prezident seçkiləri və Parisin Qafqaz siyasəti ilə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Necə oldu ki, Erik Zemmur və Valeri Pekres kimi çarəsiz populistlər və ultrasağçılar Fransa prezidentliyi uğrunda mübarizədə güclü mövqeyə gəldilər? Bunu ictimai tələblə izah etmək olarmı?***

- Hazırda Fransa bütövlükdə siyasi böhran içərisində olduğundan və seçicilər ənənəvi partiyalardan məyus olduğundan, Marin Le Pen, Erik Zemmur kimi qeyri-sistemli siyasətçilər Fransa siyasətinin ön sıralarına çıxırlar. Le Penin 2017-ci ildə itirilmiş prezidentlik kampaniyasından sonra siyasi platformasını mülayimləşdirməyə qərar verməsi və sağ mərkəzçiyə üz tutması prinsipcə populist kimi qələmə verilə bilən Zemmurun ifrat sağ cinahdakı boş kürsüyə keçməsinə şərait yaratdı. Açığı, Fransanın müəyyən hissəsi onun gündəmini bəyənir və uzun müddətdir Yelisey sarayında güclü siyasətçinin olmaması onun sağ cinahların siyasətini tənqid edərək səs toplamasını asanlaşdırır.

Valeri Pekressə gəlincə, vəziyyət başqadır. O, ənənəvi sağ mərkəzçi Respublikaçılar partiyasını təmsil edir və mahiyyətcə bu çoxfraksiyalı klassik partiyanın vahid namizədidir. Əgər 2017-ci il prezident seçkilərində bu partiyanın keçmiş lideri Fransua Fiyonla korrupsiya qalmaqalı olmasaydı, o zaman bütün rəy sorğularına görə, o, son 5 ildə Fransanın prezidenti olacaqdı. Onu populist adlandırmaq olduqca çətindir, baxmayaraq ki, o, şübhəsiz ki, müasir Fransa cəmiyyətində populyar olan bir çox sağçı şüarları qəbul etmişdir.

***- Yəqin bilirsiniz ki, Valeri Pekress ötən il dekabrın 22-də Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz səfər edib. Bundan bir qədər əvvəl Zemmur Ermənistanda da olub. Onların səfərlərini Fransadakı erməni diasporunun səs yarışı kimi qiymətləndirmək olarmı? Ermənilərin səsləri uğrunda mübarizə onları Fransa elektoratının qalan hissəsinin səslərindən məhrum edə bilərmi? Axı prezidentliyə namizədlərin, ilk növbədə, öz ölkələrinin problemləri ilə məşğul olması daha məntiqli olardı.***

- Böyük və varlı erməni diasporunun kiminsə tərəfinə səs və maliyyə dəstəyi cəlb etməsi Fransada prezidentlik yarışının mühüm tərkib hissəsi sayıla bilər. Bu, ənənəvi olaraq bütün fransız siyasətçiləri tərəfindən edilir. Düşünmürəm ki, Fransadakı erməni diasporunun səsləri uğrunda mübarizə Pekress və Zemmuru digər fransız seçicilərinin səslərindən məhrum edə bilər.

Şübhəsiz ki, sosial-iqtisadi inkişaf mövzusu miqrasiya siyasəti, radikal islamçılıq və təhlükəsizlik məsələləri ilə yanaşı, Fransa prezidentlik yarışının əsas mövzularından biridir. Bununla belə, Fransada gedən siyasi mübarizə baxımından ermənilərə ilkin ixtisarların edilməsi çox vacibdir.

***- Zemmura və Pekressin siyasi proqramlarını necə qiymətləndirirsiniz? Onların seçkidə qalib gəlmək şansları yüksəkdirmi?***

- Məncə, sağ meyillilik indi Fransada çox aktualdır. Təəccüblü deyil ki, bu prezidentlik kampaniyasında 4 əsas namizəddən 3-ü (Pekress, Le Pen, Zemmour) əsas diqqəti sağdan olan seçicilərin cəlb edilməsinə yönəldir, çünki miqrasiya siyasəti, radikal islamçılıq və təhlükəsizlik mövzuları indi demək olar ki, iqtisadi inkişaf məsələlərini üstələyir. Hətta özünü mərkəzçi (”nə sol, nə də sağ”) kimi təqdim edən prezident Makron da sağçı şüarlar qəbul etməyə məcburdur.

Çox güman ki, bu üç nəfərdən biri ikinci turda Makrona qarşı çıxacaq və çox güman ki, Pekress olacaq. Ən azı indi rəy sorğularına görə o, həm Le Peni, həm də Zemmuranı qabaqlayır.

***- Sizcə, onlar Fransa seçkilərində qalib gəlsə, Azərbaycanla münasibətləri necə inkişaf edəcək?***

- Əvvəla, yadda saxlamaq lazımdır ki, seçki vədləri heç də həmişə öz düzəlişlərini edən real siyasətə bərabər olmur. Digər tərəfdən, Ermənistanın Transqafqaz regionunda əsas müttəfiq kimi müəyyən edilməsi Fransanın Beşinci Respublikası üçün ənənəvidir. Ona görə də, çətin ki, Fransa-Azərbaycan münasibətlərində indiki vəziyyətlə müqayisədə ciddi irəliləyiş olsun.

***Tərcümə - Elçin Bayramlı***



# Ermənistanın 2050-ci il strategiyası: Görmək üçün yaşamaq lazım

Ermənistanda təkcə maddi tükənmə yox, mənəvi deqradasiya da baş alıb gedir. İnsanlar sabaha ümidlərini müharibə ilə birgə dəfn ediblər. Hakimiyyətin yalanları artıq bütün sədləri aşıb. İmkanı çatan erməni Ermənistanı tərk edir. Son rəsmi statistikaya görə, Ermənistanda 2,9 milyon insan qalıb. Real rəqəm isə bundan çox aşağıdır. Dünya Bankının məlumatına görə, hazırda keçmiş SSRİ-nin bütün respublikaları arasında Ermənistan işsizlik səviyyəsinə görə birinci yerdədir - 20,21%. Baxmayaraq ki, məsələn, qonşu Gürcüstanda bu rəqəm təxminən iki dəfə aşağıdır - 12%. Yəni, son il yarım ərzində Ermənistanda iqtisadi vəziyyət təkcə pisləşməyib, lap quyunun dibinə düşüb. İqtisadiyyat naziri Kerobyan isə 2021-ci ildə Ermənistanın ikirəqəmli iqtisadi artıma sahib olacağını deyib.

Ölkənin iri müəssisələri xarici şirkətlərin üzünmüddətli icarəsinə verilib və burada da işlər qaydasında deyil. İstehsal olunmuş məhsulların satış bazarı olmadığıma görə şirkətlər sürətlə müflisləşir, mütəxəssislər xarici ölkələrə köç etmək zorunda qalırlar.

Paşinyan isə erməni xalqının istəkləri ilə bağlı spekulyasiyalara əl atır. Məqsəd sadədir, hakimiyyəti nəyin bahasına olursa olsun saxlamaq. Müharibədən bir həftə əvvəl, 21 sentyabr 2020-ci ildə Ermənistanın ”Müstəqillik Günü”ndə Nikol Paşinyanın hay-küylə elan etdiyi ”Ermənistanın 2050-ci ilə qədər transformasiya strategiyası”nı xatırlayırsınız? Ötən bu müddət ərzində erməni dövlətlərinin və erməni xalqının başına o qədər müsibətlər gəlib ki, hökumətin 2050-ci illə bağlı arzularını çətin ki kimsə anlasın və yaxud onun reallaşmasını gözləsin. Ermənilər ancaq sabaha qədər yaşamaq barədə düşünürlər, on illərlə gözləmək isə özünü aldatmaqdan başqa bir şey deyil. Ancaq məlum olur ki, Nikol Vovaeviç özü öz dediklərinə, imzası ilə təsdiq etdiyi strategiyaya o qədər inanır ki...

Baş nazirin sözlərinə görə, onun bu müddət ərzində apardığı müşahidələr və strategiya ilə işləməsi onu göstərir ki, bu sənəd nəinki aktuallığını itirməyib, əksinə, o vaxtkı kimi aktualdır. Göründüyü kimi, Paşinyan və kabinetin digər üzvləri sanki paralel kainatda yaşayır və onların reallığı ğından tamamilə fərqlidir. Yaxın gələcəkdə iqtisadiyyatda vəziyyətin yaxşılaşacağına ümid etmək isə sadəcə, ağılsızlıq olardı.

Yeri gəlmişkən, diqqət yetirin, ölkədə işsizliyin səviyyəsi miqrasiyanın artması ilə paralel gedir. Artıq Ermənistanın hər dördüncü sakini ölkəni birdəfəlik tərk edir. Bu, müxtəlif səbəblərdən baş verir - yeni müharibə təhlükəsi, sonu görünməyən iqtisadi çətinliklər, özü və övladları üçün perspektivlərin olmaması. İnsanlar milli rüsvayçılıq, müharibədəki məğlubiyyət səbəbindən pessimizmdən qurtula bilmir. Və bu düşüncə ilə də iqtisadiyyatdan inkişaf gözləmək mümkün deyil. Raradoksa baxın, miqrasiyaya baxmayaraq, ölkədə hələ də hamı üçün kifayət qədər iş yeri yoxdur. Əslində isə, bu müasir Ermənistanın acınacaqlı reallıqlarıdır. Baş nazir 3 milyona yaxın əhalisi olan ölkəsində 1,5 milyon yeni iş yerinin açılacağını vəd edir. Buna inanmaq olarmı, Paşinyan kimi aldadır? Erməni əhali yaxşı başa düşür ki, Paşinyan strategiyasının 2050-ci ilə qədər reallaşacağını deməklə əslində ”Ermənistanın inkişaflı gələcəyini unudun” söyləmək istəyib.

Maraqlıdır, Paşinyan öz iddialı planlarını necə, nəyin hesabına və kimin hesabına həyata keçirəcək? Axı, hətta 2020-ci ilin sentyabrında bu planlar praktiki olaraq qeyri-mümkün görünürdü. İndiki vəziyyətdə isə ermənilər buna sadəcə, susur, məxməri inqilabın müəllifi - baş nazirin xəyalları dalıca qaçmaqda davam edirlər. Hara qədər, kimsə bilmir.

Paşinyan strategiyadan, ölkəsinin 2050-ci ilə qədər nəinki Cənubi Qafqazın, ö cümlədən postsovet məkanının ən inkişaf etmiş ölkəsi olacaqları barədə yalanlar uydurur. Praktik cəhətdən bu, mümkündür. Amma söhbət Ermənistandan gedirsə, burada böyük tərəddüdlər var. Çünki, ağır durumda olan Ermənistanı 2020-ci ilin iqtisadi durumuna çatdırmaq üçün ən azından 30 il vaxt lazımdır. Həm də güclü iqtisadi investisiyalar yatırmaq, meqalayihələr həyata keçirmək qaçılmazdır. Amma heç bir perspektivi olmayan bir ölkəyə milyardlarla dollar maliyyə yatırmağı kimsə qəbul edə bilməz. Nə ABŞ, nə Rusiya, nə də Fransa Ermənistana münasibətdə yeni Marşal planını qəbul etməyi də düşünmürlər. Bəs Paşinyan Ermənistanın sıçrayışlı inkişafı üçün hansı resurslardan istifadə etmək niyyətindədir?

Bir sözlə, Paşinyanın Ermənistanın 2050-ci ilə qədərki ”İnkişaf Strategiyası” mövzusuna qayıtması erməni xalqının istəkləri üzərində standart spekulyasiyasıdır. Ölkədə vəziyyət hər gün pisləşir, insanlar Ermənistandan sanki batan gəmidən siçovulun qaçdığı kimi qaçır, yerdə qalan kütlə isə kəskin narazılıq nümayiş etdirir. Hakimiyyətin mövqeyi getdikcə daha zəifləyir və buna görə də onu qorumaq üçün Paşinyan növbəti dəfə populizmə əl atır. Özü də hər şeyi mükəmməl başa düşür, amma gücün dadını hiss edərək, artıq onu vermək istəmir. Ermənistanın bütün rəhbərlərinin bəlası bu idi. Özləri də sözlərinə, vədlərinə inanmırlar, amma insanları inandırmağa çalışırlar. Paşinyan da istisna deyil. O, ermənilərə Ermənistanın 2050-ci ilə qədər nail olmalı olduğu meqa məqsədləri təsvir edir. Amma söz vermir ki, ermənilər onu görə biləcək, deyir yaşaya bilsəniz görəcəksiniz.

***V.VƏLİYEV***



# “Nar” Azərbaycan çempionu tituluna sahib oldu

”Nar” komandası bütün rəqiblərini geridə qoyaraq ”Breyn Rinq” üzrə 2021-cu ilin Azərbaycan çempionu tituluna sahib olub. Azərbaycannın 6 universitet və 6 region komandası da daxil olmaqla 16 komanda 4 ay boyunca gərgin mübarizə aparıb. Finalda ”Nar” komandası ”Bilik” kubokunun sahibi ”Bridge” komandası ilə qarşılaşıb və ilin qalib olub. ”Azerfon”un Baş icraçı direktoru Qunnar Panke qalib ”Nar” komandasının üzvləri ilə görüşüb və onları təbrik edib: ”Nar” komandasının mütləq çempion olaraq xüsusi seçilməsi sizin əzminiz, savadınız və cəld düşünmə qabiliyyətiniz sayəsində olub. Belə savadlı gənclərin nailiyyətləri bizi sevindirir və uğurlarınızın davamlı olmasını diləyirəm”.

Qeyd edək ki, ”Breyn Rinq” bilik yarışı ”Nar”ın korporativ sosial məsuliyyət strategiyası çərçivəsində elm və təhsilə dəstək layihələrindən biridir. Mobil operator artıq 9 ildir ki, ”Breyn Rinq” intellektual oyununa dəstək olur. ”Nar”ın sosial layihələri haqqında ətraflı məlumatı http://www.nar.az səhifəsindən əldə etmək olar.

”Azerfon” şirkəti (”Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. ”Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. ”Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Niyə bəzi varlılar kasıbları əzməyə çalışır?

**Dünyadakı bütün milyonçular təsadüfən varlanmayıb. Zəngin insanlar düşünüldüyü kimi, yalnız şansları və ya ailələrinin maddi sərvəti ilə milyonçu olmurlar. Müəyyən maddi sərvətə sahib olanların həyatına nəzər saldıqda bir çox ortaq xüsusiyyətlər önə çıxır. Bu xüsusiyyətlər də onların nə üçün zəngin olduqlarını yaxşı izah edir. Milyoner insanların ümumi xüsusiyyətləri bunlardır:**

**1. Onların effektiv şəbəkəsi var**

Milyonerlərin ortaq xüsusiyyətlərindən biri də onlar kimi dostlar qrupuna aid olmalarıdır. Oxşar xüsusiyyətlərə malik insanlar-



la dostluq edən insanlar investisiya və pul məsələlərində fikir mübadiləsi apararkən pul qazanmağa daha yaxın olurlar.

**2. Risk etməyi xoşlayırlar**

Zəngin insanların ən diqqət çəkən xüsusiyyətlərindən biri də risk almağı sevmələridir. Risk edən insanlar daha uğurlu olur və varlanmaq şansı daha yüksəkdir.

**3. Onlar erkən oyanırlar**

Milyonerlərin çoxu səhər tezdən durub günlərini planlaşdırmağı xoşlayır. Səhərdən oyanıb işlərinin arxasınca getmək onlar üçün daimi vərdişdir.

**4. Qənaətcil**

Milyoner insanlardan gözlənilməyən



ümumi xüsusiyyətlərdən biri olan qənaətcillik diqqət çəkən bir davranış modelidir. Milyonçular pulun qədrini bilən və hesablamağı sevən insanlar olduğundan qənaətcil davranışları diqqəti çəkir.

**5. Enerjilərini pul qazanmağa yönəldirlər**

Zənginlərin çoxu öz sərvətləri ilə kifayətlənmir və daha çox pul qazanmaq üçün yaşayırlar. Onlar enerjilərini və vaxtlarını yeni strategiyalar hazırlamaq üçün sərf edirlər.

**6. Sahibkarlıq ruhuna malikdirlər**

Sahibkarlıq ruhuna malik zəngin insanlar yeni sərmayələr qoymağa və bizneslərini inkişaf etdirməyə həmişə müsbət yanaşırlar. Onlar öz bizneslərini qurmaqla qorxmadan həyata atılma cəsarətinə malikdirlər.

**7. Qarşılarına məqsəd qoyurlar**

Milyonerlər özləri üçün yeni hədəflər və bazarlar seçərək özlərini aktiv saxlayırlar. Onlar həmişə daha yaxşı olmaq üçün məq-



sədlərini nəzərdən keçirirlər.

**8. Çalışqan**

Zəngin insanlar böyük sərvətə sa-



hib olsalar belə, işləməkdən əl çəkmirlər. Tənbəl həyat sürmək onlar üçün deyil. Onlar inanırlar ki, işləmək həmişə onları uğurlu və formada saxlayacaq.

**9. Özlərinə sərmayə qoyurlar**

Milyonerlər, onlara yeni qabiliyyətlər qazandıran məşğuliyyətlərlə məşğul olaraq daha uğurlu olacaqlarına inanırlar. Onlar düşünürlər ki, yeni hobbilərlə məşğul olmaq, məşq etmək və kitab oxumaq vacibdir.

**10. Onlar yeni imkanları görə bilirlər**

Yeni tendensiyaları və imkanları reallaşdıran və bu məsələlərə sərmayə qoyan zənginlərin ən böyük xüsusiyyəti, hər kəsdən əvvəl fürsətləri ələ keçirmələridir.

Fəqir sözü ərəbcə ”qazmaq” mənasını verən ”fəkr” kökündən olan sifətdir və əsl mənası ”onurğası sınmış” deməkdir. Həmçinin bildirilir ki, bu vəziyyətdə olan insan kimi bir işi görə bilməməsi və başqalarına möhtac olması səbəbindən maddi sıxıntı içində olan şəxsə yoxsul deyilir.

”Fəqir” sözü Quranda fuqara cəmi ilə on iki dəfə keçir. Bu ayələrdən ikisində (Fatir 35/15; Muhəmməd 47/38) Allahın varlı, insanların isə kasıb olduğu qeyd edilərkən, insanların özlərinə kifayət etmədiklərini, Allaha möhtac olduqlarını vurğulamaq məqsədi daşıyır. Sözün bu mənası təsəvvüfdə xüsusi əhəmiyyət qazanmış və fəqr təsəvvüf ədəbiyyatının mühüm məfhumları sırasında öz yerini tutmuşdur. Kasıblara kömək etmək, onları yedizdirmək və qorumaqdan bəhs edən digər ayələrdə də bu sözün xalq dilindəki ümumi işlənməsinə uyğun olaraq zəngin olmayan, maddi sıxıntı və ehtiyac içində olan insanlara aid edildiyini söyləmək olar. Əslində, Hz. Musanın özünü yoxsul adlandırmasında və ya Məkkədən Mədinəyə hicrət edən mühacirləri yoxsul adlandırarkən maddi ehtiyac nəzərə alınmışdır.

Böyük Britaniyada yerləşən Oxfam humanitar təşkilatının qlobal yoxsulluq göstəricilərinə görə, dünyanın ən zəngin 1%-i 6 milyard 900 milyon insanın ümumi gəlirindən iki dəfə çoxdur. Dünya əhalisinin az qala yarısının, 3 milyard 400 milyon insanın gündəlik gəliri 5 dollar yarımdan azdır.

Milli gəlirdə əməyin payı əvvəlki ilin ilk altı ayı ilə müqayisədə





2019-2020-ci illər arasında 2 bənd, 2021-ci ilin ilk altı ayında isə 4 bənd azalıb.

22 dekabr 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) qlobal yoxsulluğun azaldılması üçün məlumatlılığı artırmaq və bütün dünyada yoxsulluq probleminə diqqəti cəlb etmək məqsədi ilə 17 oktyabrı Ümumdünya Yoxsulluğun Aradan qaldırılması Günü elan etmişdir.

*Ardı Səh. 12*

# Niyə bəzi varlılar kasıbları əzməyə çalışır?

Əvvəli Səh. 11

Ötən gün sosial şəbəkələrdə Bakıda yüksək sürətlə hərəkət edən "Gallendvagen" markalı avtomobilin sürücüsünün az-



təminatlı ailələri təhqir edən görüntüləri yayılıb. Ümumiyyətlə, varlıların kasıblara üstdən aşağı baxması nədən qaynaqlanır? Varlı-kasıb münasibətləri dünyada və Azərbaycanda nə yerdədir? Niyə bəzi varlılar kasıbları əzməyə çalışır?

SİA məsələ ilə bağlı din xadimi Mircəfər Əyyubov və psixoloq Vüsalə Əmiraslanovanın fikirlərini öyrənib.

**Din xadimi Mircəfər Əyyubov məsələyə dini aspektdən yanaşıb:** "Bəzi hadisələrin yaratdığı psixoloji durum hadisənin özündən daha çox qabarıq görünür. Bir imkanlı şəxs hansısa aztəminatlı ailəni



və ya aztəminatlı şəxsi təhqir edirsə bunun sosial şəbəkədə yayılması ilə insanlarda belə bir psixoloji əhval-ruhiyyə yaradır ki, bəli bütün imkanlı şəxslər bütün kasıbları təhqir edir. Bu doğru deyil. Çox imkanlı və mərifətli şəxslər, ədəbli şəxslər var ki, kasıblara hörmət də edir və çox kasıblar var ki, imkanlı şəxslər onlardan qat-qat ədəblidir. Çox kasıblar var ki, təkəbbürlərindən insanları təhqir etməkdən əl çəkmirlər. Yəni, bu təkcə varlı-kasıb söhbəti deyil.

İkincisi, sosial şəbəkələr ümumiyyətlə insanların qeybət və bir-birini rüsvay etmək məkanına çevrilib. Bir Allah bəndəsi üçün, bir insan, bir şəxsiyyət üçün həqiqətən ayıbdır ki, gördüyü hər şeyi videoya çəkib sosial şəbəkələrdə yayımlayır. Bu doğrudan biabırçılıqdır. Yəni, insanların işi-gücü qurtarıb, ancaq elə bu işlərlə məşğuldur. Bəli, bir insanın işi jurnalistikadır, müxbirlikdir. Bu başqa mövzudur. Amma insanın şəxsiyyəti, alicənablığı, Allah bəndəsi olması onun əməllərinə, vəzifələrinə qalib gəlməlidir.

Qurani-Kərimdə var-dövlətin, dünya malının bir xüsusiyyəti önə çəkilir, önəmsənir, qeyd olunur ki, bu xüsusiyyət var-dövlət tərəfindən insana aşılana bilir. O da bundan ibarətdir. Allah-təala səhv etməsəm Qiyamət surəsində buyurur ki, insan özünü ehtiyacsız görən zaman tüğyan, harınlıq, qudurğanlıq edir. Bu özünü tərbiyə etməmiş insanlarda var-dövlətlə birgə gələn hissdir. Əgər bir insan özünü düzgün tərbiyə etməyibsə, davranış pozuntusu varsa ona gələn var-dövlət onu mənfi yönümdə dəyişə bilir. Bu var-dövlətin gətirdiyi xüsusiyyətlərdir. Tərbiyəli insanların isə nə qədər var-dövləti çox olsa bir o qədər təvazökarlıqları çoxalır. Beləliklə, biz varlı cəmiyyəti iki kateqoriyaya bölə bilərik. Özünü əxlaqi baxımdan tərbiyə edə bilmiş imkanlı və özünü tərbiyə edə bilməmiş imkanlı şəxslər.

Mən burda biraz fərqli aspektdən baxıram. Ümumiyyətlə, dünyada necədir? Bizdə necədir? Mən bizi daha üstün hesab edirəm. Çünki dünyada əsasən bu münasibətlər hansısa insani dəyərlərə, mənəvi mentalitetə əsaslanmır. Əsasən qanun qorxusundan rol oynamaq kimi hesablanır. Lakin şərqdə bunlar insanın Allah qorxusundan, mənəvi dəyərlərə ehtiramından, mentalitetdən və s. xüsusiyyətlərdən qaynaqlanır. Ona görə də mən şərqi daha üstün hesab edirəm. Dünyada görürsünüz ki, daha çox varlılar daxilindəki boşluqlardan sui-istifadə edib kasıb ölkələrə, kasıb xalqlara olmazın zülmlər edirlər, onlar üzərində eksperimentlər aparırlar. Şükür Allaha ki, şərq insanında bu qədər qəddar, yırtıcı duyğu hələ ki yoxdur.

Niyə bəzi varlılar kasıbları əzməyə çalışır? Bu bəzən varlıların hansısa travmasından, psixoloji zədəsindən qaynaqlanır. Görürsən bir nəfər yaşamağa başlayanda, işləməyə başlayanda daim onu əzirlər, incidirlər, hər yerdən qovurlar, onda bir kin, düyün yaranır ki, mən imkanlı olanda bu qisasımı cəmiyyətdən alacam. Təbii ki, bu cəmiyyətin varlı təbəqəsindən bu qisası ala bilmir, gücü çatdığı təbəqədən bu qisası almağa çalışır. Yəni, belə insanlar bir növ psixoloji problemi, travması olanlardır. Daha kobud desək, dəliliyin bir növüdür. Dində bu son dərəcə böyük günahdır. Bu təkəbbürdür. Varlı təkəbbür edir, kasıbı əzir və xilqət yarandığı andan etibarən ilk baş verməş ən böyük günah təkəbbürdür. Təkəbbür bu qədər böyük günah və çirkin əməl sayılır".



**Psixoloq Vüsalə Əmiraslanova isə psixoloji yanlarını izah edib:** "Varlı-kasıb münasibətləri ümumiyyətlə ailədən irəli gəlir. Yəni, bəzən insanlar düşünür ki, varlı olmaq həm də başqasını əzmək, təhqir etmək deməkdir. Amma bir məsəl var, insan dünyaya kasıb gəlirsə, günah onda deyil, amma kasıb ölürsə günah onun özündədir. Əlbəttə ki, hamı istəyər ki, yaxşı yaşasın. Lakin insan bunun yollarını bilməyə bilər. Bəzi insanların işində uğursuzluqlar ola bilir, bəzi insanlar ümumiyyətlə itkilər yaşayır, saf olurlar, onların müəyyən qədər pulları oğurlanır və s. Səbəblər çoxdur. Xəstəliklər olur ki, əllərində müəyyən qədər məvaciblər olmur. Amma heç kəs heç kəsi təhqir etmək hüququna malik deyil. Heç kəs heç kəsi təhqir edə bilməz. Mən də o videonu izlədim. Çox vaxt təbəqələşmə var. Yəni, biz varlı ailəyik, filan ailədən qız ala bilmərik, biz onlarla səviyyə baxımından uyğun gələ bilmərik. Mən düşünürəm ki, əsas insanın intellektual səviyyəsinin uyğun gəlməsidir. Maddi səviyyə onsuz da insanda dəyişir. İntellektual səviyyə isə insanda olur və onun inkişaf etdirir. Bu birbaşa tərbiyə ilə bağlıdır. Öz övladımızı necə tərbiyə ediriksə o da digərlərinə o cür yanaşma verir. Ona görə də birinci ailədən başlamaq lazımdır. Dünyanın varlılarının kasıblara münasibətini tam olaraq deyə bilmərəm, əksəriyyətində bu var. Amma elə varlılar da var ki, çox sadədirlər, çox rahatdırlar və elə kasıblar var ki, özlərini çox varlı hiss edirlər. Bu sadəcə duyğulara, düşüncəyə bağlı olan bir məsələdir".

***Ayşən Vəli***



GEOSİYASƏT+AKTUAL

# Ukrayna böhranı: Qərb-Rusiya qarşıdurması son həddə

## Moskva ABŞ-a və NATO-ya qarşı gözlənilməz addımlarını atacaqmı?

SSRİ-nin süquta uğramasının 30-cu ildönümündə dünya öz diqqətini Ukrayna böhranı yönündəki Qərb-Rusiya gərginliyinə tərəf çevirib. Görünən isə budur ki, Kreml postsovet məkanında öz təsir qüvvələrini möhkəmləndirmək üçün yeni addımlar atmaq qərarını verib. Belə ki, bununla yanaşı, Moskva NATO-dan Mərkəzi Şərqi Avropa məkanında hərbi genişlənmə prosesinə son qoymasını, Ukrayna da daxil olmaqla yeni üzvlərinə qarşı qapılarını bağlamağı yazılı şəkildə və rəsmi zəmanət istəməklə tələb edir. Qısa izah etsək, Rusiya öz xeyri müqabilində Qərbin qarşısına yeni tələblər irəli sürməkdədir.



### Bütün diqqətlər Rusiyanın lideri Vladimir Putinə tərəf yönəlib

Moskva eyni zamanda ordu hissələrini Kubada və Venesuelada yerləşdirilməsi mümkünlüyü haqqında da düşünür. Halbuki Cenevrədə, Brüsseldə və Vyanada aparılan danışıqlar da nəticəsiz qaldılar. Nəticədə bütün diqqətlər Rusiyanın lideri Vladimir Putinə tərəf yönəlib.

Bu arada, ABŞ-ın prezidenti Co Bayden də açıq şəkildə nümayiş etdirir və bəyanatlar səsləndirir ki, Rusiya müəyyən qərarlarını verib və daha əvvəldən hazırladığı planlarını fəaliyyəti ilə icra edəcək. Sadəcə Putinin hansı ssenari üzrə oyun quracağını düşünmək olar ki, bu da məhz Kremlin tələb etdiyi yazılı zəmanət verilmədiyi halda məlum olacaq. Daha dəqiq desək, Rusiya ABŞ-a və NATO-ya qarşı gözlənilməz addımlarını atacaq.

Bayden onu da etiraf edir ki, NATO üzrə müttəfiqləri arasında bir çox məsələlər üzrə fikir ayrılıqları mövcuddur, xüsusilə Rusiyanın fəaliyyəti yönündə bir sıra məsələlər üst-üstə düşmür. Lakin buna baxmayaraq, Qərbin də əlində müəyyən mənada ”kozırlar” mövcuddur: iqtisadi sanksiyaları artırmaq və əhatə dairəsini genişləndirmək. Əsasən də Putinin özünə və yaxın ətrafına qarşı. Artıq gözlənilir ki, daha əvvəlki sanksiyaları da geridə qoymağı bacaran Putin daha sərt sanksiya tətbiqlərindən də qorxmur və geriyə çəkilmək barədə ümumiyyətlə düşünmür.

### “Foreign Affairs” nəşri yazır ki, NATO kirli və şişirdilmiş bədheybətə çevrilib

Bu arada, bir sıra Qərb KİV-ləri Rusiya prezidentinin fəaliyyətini ”böyük imperiyanı qurmaq cəhdi” kimi qiymətləndirməyə başlayıblar. Rusiyada isə hesab edirlər ki, Qərb və ABŞ daha əvvəllər verdikləri vədlərini yerinə yetirmir. Beləliklə, Ukraynadakı eskalasiya gərginliyi NATO-nun gələcəyi ilə bağlı gündəmi yenidən aktuallaşdırıb. Hətta belə desək, əgər Trampın prezidentliyi dövründə o açıq-açığına etiraf edirdisə ki, NATO qocalıb, Bayden həmin ifadəni qəbul etmir və o, nə qədər çətin də olsa, Transatlantik alyansı bir yerə cəmləşdirməyə cəhdlər göstərir - səbəb kimi isə haqqında bəhs edilən Ukrayna gərginliyi gətirilir. Belə ki, NATO və ABŞ rəsmiləri alyansın qapılarının açıq olduğunu bəyan edirlər, digər tərəfdən isə Qərb mediası NATO-nun məqsədlərinə çata bilmədiyini yazırlar.

Misal üçün, Amerikanın nüfuzlu ”Foreign Affairs” nəşri yazır ki, NATO kirli və şişirdilmiş bədheybətə çevrilib və məhz öz təhlükəsizliyi üçün öz qapılarını yeni namizədlərinin üzlərinə bağlamağa məhkumdur.

### Əzələ nümayişləri həyata keçirilir və bunun üçün də külli miqdarda vəsaitlər xərclənməkdədir

”The Wall Street Journal” isə öz dərcində bildirir ki, Putinin inamlı addımlarının qarşısını almaq üçün vasitə var. Bu vasitə Ukraynanın müdafiəsi üçün amerikalıların və koalisiya güclərinin hərəkətə gətirilməsidir. Bütün bu kimi cəhdlər isə, əslində, hər iki tərəfin böyük müharibəyə hazır olmadıqlarını da göstərir. Köhnə yanaşma ilə desək, əzələ nümayişləri həyata keçirilir və bunun üçün də külli miqdarda vəsaitlər xərclənməkdədir. Bəziləri düşünürlər ki, Bayden ”böyük müharibə” üçün ”yaşıl işıq” yandırıb. Bəziləri isə əksinə düşünürlər və qeyd edirlər ki, Qərb qərarlarını dəqiqləşdirənə qədər Putin öz mövqelərini möhkəmləndirəcək və bu faktor yeni müharibənin başlanmasını əngəlləyəcək.

***Rövşən RƏSULOV***

# Məşhur türk aktrisa vəfat etdi



Dünən səhər saatlarında müalicə aldığı xəstəxanada həyatını itirən türk kinosunun ustası Fatma Girik üçün Muğlanın Bodrum şəhərində həyat yoldaşı, rejissor Memduh Ün-ün məzarının yanında məzar yeri hazırlanmağa başlanıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Muğlanın Bodrum şəhərində yaşayan və təxminən 6 ay əvvəl müalicə üçün İstanbula gələn Fatma Girik bu gün səhər saatlarında dünyasını dəyişib.

***Səbinə Hüseynli***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Bahalı evli, bahalı maşınlı qadın müğənnilər - uğurun sirri

**Təsadüfən qarşıma bir qadın müğənninin fövqəl açıqlaması çıxdı. Etika xətrinə adını yazmıram, amma saytlarda gedb. Sadəcə, həmin o az qala ümumbəşəri bəyanata bənzəyən fövqəl açıqlamanı oxuyarkən, daxilimdə istər-istəməz bir hiss, qəribə, tükürpədici fikir formalaşdı. Məhz bu barədə də yazmağı qərara aldım. Axı nə edim, mənim də dəyişən dəli dünyamızda ayaqda qalmağımın səbəbkarlarından biri dərdimi bölüşdüyüm, hərdən-birdən də yağlı mürəkkəblə yazan qələmimdir.**

Nə isə... Deməli, həmin müğənninin təhtəlşüur fikirlərində bildirilir ki, sən demə, telekanalların birində yayımlanan ”Söz baz” (ada bax eee) verilişinə dəvət olunan müğənni ona maddi dəstək olan vəzifəli (?) şəxsdən danışıb və həmin insanın ona bahalı ev və maşın da hədiyyə etdiyini bildirib. Diqqət yetirin, bahalı ev və maşın! Yəni ”bahalı” ifadəsi xüsusilə vurğulanıb nəyə görəsə. Amma nəyə görə? Onu da yavaş-yavaş analiz edək. Deyir ki, bu barədə heç yerdə danışmayıbmış, indi isə artıq vaxtıdır, bu haqda açıqlama verməlidir. Və sən demə el-aləm, bütün kürreyi-aləm, yer üzünün bütün qitələrində yaşayan milyardlarla bəşər övladları gecə-gündüz dərdindən-qəmindən gecələr yata bilməyərək, yorğan-döşəklərində qanın-tərin içində ora-bura çevrilib yuxularını bada verərək bu qadın müğənninin bahalı ev və maşınını necə əldə etdiyini düşünüblərmiş. O da gözünədöndüyüm saxlayıb-saxlayıb və nəhayət (!) ”Söz baz” adlı verlişdə sözügedən möhtəşəm sirrini xalqa bəyan edib, özü də izahla!

Qadın deyir ki, bir adam var imiş və o, bununla çox görüşmək istəyirmiş. İndi isə sözlərə diqqət: ”Bilirsiniz də, xanımlara bir çox təkliflər olur. O, çox təkid edirdi. Dedim ona bildirin ki, mən təmiz insanam. O, mənə yardım etmək istəyirdi. Mən onun yardımından imtina etdim. Həmin insan çox təəccübləndi. Deyib ki, mən bunu araşdıracam, əgər ”K” (müğənninin adını özüm yazmıram) düz yolun yolçusudursa, mən ona bu yardımları təmənnasız edəcəm. O, çox hörmətli, vəzifəli şəxsdir və məni çox sevirdi. Mənə maşın, ev aldı...”

### Pəkəla! Çox mübarək, hədiyyələriniz bol olsun, hətta lap çox olsun, amma...

Adi bir insan, müğənni ikicə dəqiqənin içində baxın-görün özünü el dili ilə desək, necə mətaha mindirib. Yəni ifadələrindən də bunu sezmək, ayırd etmək elə də çətin deyil. Təkəbbür və özündənmüşəbehlik! Qayıdıb deyəsən ki, ay müğənni xanım, imtina etmişdinsə sonuna qədər edərdin da, daha əzilib-büzülməklərdən, dartmalardan sonra niyə həmin hədiyyəni qəbul etdin? Daha doğrusu, marağın yox idisə, daha ”mən belə, mən elə” deyib də sənin etirafını oxuyanları, dinləyənləri o qədərmi avam hesab edirsən? Çox şükür ki, indi balaca-balaca uşaqlar da gözaçıqdırlar və nəyin-necə olduğunu böyüklərdən də yaxşı bilirlər. Yəni hansısa müğənninin hansısa maşını, hansısa evi (baha, ya da qeyri-baha olmasına baxmayaraq) varsa sağlığına qismət olsun, amma onu mövcud vəziyyətdə xalqın gözünə zorla sırımağa nə hacət var idi ki?

Qaldı ki ”vəzifəli şəxs” deyilən adama, onun da bir əmisi sabiq nazir, atası isə keçmiş deputat olub. Hətta o şəxsin ”vəzifəli” adlandırılmasına baxmayaraq, onun vəzifəsi barədə bir kəlmə də olsun deyilməyib, əslində, heç maraqlı da deyil. Maraqlı olan budur ki, o ”səxavətli” və azmüddətli ”eşqə düşən” şəxs gənc yaşlarındadır və şəkili soydaşlarımız demişkən, şəklinə baxanda da görünür ki, heç vaxt öz zəhməti ilə, alın təri ilə pul-para qazanmayıb. Bəlkə də ”lapatkanı”, kərkini, dreli doğru-dürüst tutmağı bacarmır, necə ki, pul-paraları əlində tutmağı bacarır. Dədə bir yandan, əmi də o biri yandan qəşəngcənə yığıb-toplayıb, bu da onların ”şotuna” yekəxanalıq edə-edə bahalı ev, bahalı maşın alaraq paylayır ”K”lara, ”M”lara, ”Z”lara və s...

Bəli, indi bir çoxları mənə irad tutub deyə bilərlər ki, axı sən nə bilirsən, bəlkə həmin o müğənni xanıma qarşı müvəqqəti eşqə düşən şəxs qazilərə, şəhid ailələrinə, yaxud müvafiq fondlara yardımlar edib və s..? Fəqət, edibsə belə, əminəm ki, bu yazı dərc olunana qədər ehtiyaclı olanlara nə bahalı (!) evlər, nə də bahalı (!) maşınlar hədiyyə ediblər. Onlar asan, əziyyətsiz gəlirlərini bax bu cür məsələlərə xərcləyirlər. Nə deyirik, etsinlər, amma arada-sırada kimlərin müqabilində bu həddə çatmaları barədə düşünüb-daşınsınlar! Düşünsünlər ki, üzərində gəzməklə farmazonluq etdikləri bu torpaqların üzərinə uğrunda canlarını fəda etmiş oğullarımızın qanları hopub, bu elin-obanın dərdini qələmlərinə yükləyən mirzələr, qələmdarlar var ki, məhz onların yazıb-pozduqlarının hesabına rahatca həyat sürürlər, üstəlik, bahalı hədiyyələri ilə özlərini müğənnilərin qarşısında ”xeyirxah”, ”əliaçıq”, ”comərd” kimi göstərirlər. Amma di gəl...

Çox uzatmayım, gəlim əlqərəzə və həmin müğənniyə də mübarəkdir, sağlığına qismət deyək və əlavə edək ki, çox da zildən getmə, səsin-zadın batar, daha hədiyyə-zad verən də olmaz...

***P.S. Belə də, VaAllah indi o qədər adam var ki, həyatlarının yarısını geridə qoyublar, amma nə evləri, nə eşikləri var, hətta velosipedləri belə yoxdur!***

SİYASİ RAKURS

# Xədicə İsmayıl Qərbin iç üzünü niyə və necə açdı?

**Jurnalist: "Qərbdə bəzi insanlar deyirdilər ki, mən Qarabağ məsələsində Ermənistana qarşı çıxsam, məni dəstəklədiklərinə görə peşman olacaqlar. Bu barədə əvvəlcədən bilsəydim, onların dəstəyindən dərhal imtina edərdim".**

Qərb dairələrinin zaman-zaman ölkəmizdə fəaliyyət göstərən siyasi müxalifətçilərə, habelə müxalifətyönlü jurnalistlərə sifarişlər verməsi, onların fəaliyyətlərinin məhz dövlətin maraqlarına qarşı çıxmaları üzərində qurmalarını tələb etməsi sirr deyil. Lakin daha bir fakt da budur ki, bugünə qədər bir sıra müxalif baxışlı şəxslər Qərbin bəlli dairələrinin, xüsusilə, ermənipərəst cinahlarının kirli məqsədlərini zamanında anlayaraq həmin dairələrdən imtina ediblər. Yəni dövlətin apardığı milli siyasətinə qarşı çıxmağı özlərinə rəva görməyiblər.

Bəli, ölkədəki demokratik siyasi mühit imkan verir ki, siyasi baxışı fərqli olan hər hansı bir şəxs müxalifətdə olsun və öz iradlarını bildirsin, amma söhbət dövlətin maraqlarına gələndə bu məsələdə ümumi baxış prizması mövcuddur və dövlət maraqlarına qarşı çıxmaq əlbəttə ki, xəyanətə bərabər ola bilən bir hal kimi qiymətləndirilir.



## Qərbin ermənipərəst dairələrinin maraqlarına xidmət edənlər AXCP, Müsavat və "Milli Şura"dır!

Bu xüsusda jurnalist Xədicə İsmayılın Almaniyanın "Zenit" dərgisinə verdiyi müsahibəsində onun Qərbin qaranlı dairələrinin qarşısında qoyduğu tələb və şərtləri ifşa etməsi, həmçinin bəzi faktları açıqlaması maraqdoğurucudur.

Məsələn, onun sözlərindən həm də belə nəticə hasil edə bilərik: Azərbaycan dövlətinin və xalqının işğal altındakı Qarabağ torpaqlarını azad etməsi yönündə başlatdığı və 44 gün davam edən Zəfər yürüşü zamanı Qərb ölkəmizdəki bir sıra müxalifətçiləri öz maraqları kontekstində istifadə etməyi planlaşdırırdı. Lakin Azərbaycanda mövcud olan xalq-iqtidar birliyi, eləcə də müxalifət düşərgəsinin də bu birlikdə fəaliyyəti ermənipərəst dairələrin planlarını icra etmələrinə imkan vermədi. Düzdür, AXCP sədri Əli Kərimli və onun nəzarətindəki "Milli Şura" adlı ölü qurum istər müharibə, istərsə də ondan sonrakı dövrdə ümummilli məsələlərdən kənarda dayandı, hətta xarici dairələrin bu və ya digər sifarişlərini həyata keçirdi - Ali Baş Komandana dəstək müraciətinə izma atmış 50-yə yaxın siyasi müxalifət partiya sədrlərinin təşəbbüslərinə qoşulmadı, üstəlik Şuşa Bəyannaməsi ilə bağlı dəstək təşəbbüsündə də iştirak etmədi. Söz yox ki, bu xain əməlinə görə Əli Kərimliyə və onun əlaltılarına müəyyən mənada maddi dəstəklər göstərildi. Eləcə də bu məsələni Müsavat partiyasının başqanı Arif Hacılıya da aid etmək olar.

## Müxalifətyönlü jurnalist: "Nəyə görə mənə icazə verilir ki, Ermənistanın yox, təkcə Azərbaycan hökumətinin problemlərini işıqlandırım?"

Lakin ayrı-ayrı şəxslərə də çox yəqin ki, məlum vədlər verilsə də, onlar həmin vədləri rədd ediblər. Elə haqqında bəhs etdiyimiz jurnalist Xədicə İsmayıl kimi. Bu baxımdan, onun almanların "Zenit" jurnalına verdiyi müsahibəsində Qərb dairələrini ifşa etməsi istər-istəməz diqqətləri çəkir. Məsələn "Nəyə görə mənə icazə verilir ki, Ermənistanın yox, təkcə Azərbaycan hökumətinin problemlərini işıqlandırım?", sualını edən Xədicə İsmayıl tapşırıqların Qərb dairələrindən verildiyini açıq-aşkar etiraf edir, yəni "icazə" məsələsi ilə. Amma o ardınca bildirib ki, Qarabağ müharibəsi iqtidarın deyil, bütövlükdə dövlətin və xalqın müharibəsi idi və belə olan halda Qərbə tərəf meyllənmək milli xəyanət hesab oluna bilər. Xədicə İsmayıl bildirib ki, hakimiyyət Qarabağla bağlı mübarizəsində haqlıdır, çünki Ermənistan beynəlxalq hüququ pozaraq ölkəmizi işğal edib.

Digər tərəfdən, jurnalist qeyd edir ki, o, Azərbaycan hakimiyyətini tənqid edəndə Qərbdə ona təlabat olub, lakin Qarabağ münaqişəsi ilə bağlı mövqeyini bildirən kimi ona olan maraq itib. Belə ki, ötən il ona qanuni yolla Azərbaycanı tərk etmək icazəsi verilib, lakin bundan əvvəl Qərb ölkələrinə davamlı olaraq dəvət olunurdusa, indi belə dəvətlər yoxdur: "Yenidən sərbəst hərəkət edə bilirəm, lakin görünür ki, daha heç kimə lazım deyiləm. Bu, depressiyaya səbəb olur".

## Münaqişə mövcud hakimiyyətin zamanında başlamayıb və ona görə də o, bu "arqumenti" qəbul etmir

Jurnalist iddia edir ki, "kimisə sevindirmək və ya xaricdən daha çox alqış almaq" üçün Qarabağın Ermənistan tərəfindən işğalı ilə bağlı inanclarından əl çəkməyə hazır deyil. Onun sözlərinə görə, Ermənistan tərəfdən heç kim Qarabağın işğalını tənqid etmir və erməni hərbi cinayətlərinin araşdırılmasını tələb etmir, yeganə istisna mərhum erməni hüquq müdafiəçisi, Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən Georgi Vanyan olub.

Qarabağ məsələsində Azərbaycan rəhbərliyi ilə həmrəy olduğunu digər tərəfdən də şərh edən müxalif jurnalist Almaniya nəşrinə müsahibəsində bildirib ki, Qərb dairələrinin iddialarına görə, guya "Azərbaycanın hakimiyyəti Qarabağ ermənilərini Azərbaycan hakimiyyəti altında yaşamaq imkanından məhrum edir". Məhz bu sərsəm iddianı şərh edən İsmayılova qeyd edib ki, münaqişə mövcud hakimiyyətin zamanında başlamayıb və ona görə də o, bu "arqumenti" qəbul etmir. "Əslində, fikirləşsəniz, yalandır", deyə bildirib.

Beləliklə, fakt budur ki, Xədicə İsmayıl artıq Qərbin bir sıra anti-Azərbaycan dairələrinin gizli məqsədlərini açığa çıxarıb və söz yox ki, həmin dairələrin kökündə dayananların da kimlərin olduqlarını yaxşı bilir. Necə deyərlər, ədalət hər zaman öz sözünü deyib və bu dəfə illərdir ki, Azərbaycana qarşı tətbiq edilən Qərb ədalətsizlikləri məhz müxalifyönlü jurnalist Xədicə İsmayıl tərəfindən ifşa olundu.

**Rövşən RƏSULOV**



Elçin Bayramlı

# Elmin səmimiliyinə niyə inanmıram?

**Tez-tez mətbuatda ziddiyyətli informasiyalarla qarşılaşırıq. Filan şey insana xeyirlidir, filan şey zərərlidir, alimlər sübut ediblər... qəbilindən antipod məlumatların sayı-hesabı bilinmir. Hansısa mərkəzlərdən məqsədli məlumatlar yayılır və bizim media da ya bilərəkdən, ya da bilməyərəkdən bunu yayıb qlobal quldur dəstəsinin dəyirmanına su tökürlər.**

Təsəvvür edin- bizim qəzetlərin birində belə bir informasiya gedir- "Sən demə, şokalad insan sağlamlığının ən yaxın dostu imiş, alimlər sübut ediblər ki, hər gün 2-3 dəfə şokalad yeyən adam daim şən əhvalda olur, qan dövranı yaxşı işləyir, əsəbiləşmir, həzm prosesi normal gedir..."

İnsanların yaralı yerindən yapışıblar. Ay qardaş, ay bacı, hansı ölkənin, hansı alimlər, hansı institut, hansı elmi mərkəz, mənbə haradır, nə vaxt sübut olunub... cavab yoxdur. Oxucu sayı xatirinə və ya qonorar xatirinə informasiya.

Azacıq ağıllı adama aydındır ki, bu kimi xəbərlər məqsədli şəkildə bəzi şirkətlər tərəfindən ortaya atılır, amma bizim mətbuatda diletantlar üstünlük təşkil etdiyindən mahiyyətinə varmırlar. Lakin ədalət naminə deyək ki, bəziləri hərif deyil, məqsədli şəkildə belə məlumatları yayır. Məhz bu üzdən bizim bir özəl televiyada əvvəl deyirlər ki, "alimlər sübut ediblər ki, ana südü zərərli imiş", ardınca da deyilir, "alimlərin son araşdırmalarına görə, alkoqollu içkilər insana xeyrlidir"...

Bir gün deyirlər, filan şey xeyirlidir, bir həftə sonra deyirlər ki zərərlidir. Burda informasiya savaşı getdiyini bilməyə nə var? Bir transmilli şirkət öz məhsulunu satmaq üçün alimlərə pul verib saxta rəy alır, rəqibi isə pulla başqa alimləri kirayə tutub bunu "elmi şəkildə" araşdırtdırır və əksini dedirtdirir.

Genetik modifikasiyanın bəşəriyyətin və təbiətin əsas məbədinə həyasızcasına təcavüz olduğunu bilmirlərmi guya? Son illərdə bitki, heyvan aləminə müdaxilə insanın genetik strukturunu dağıtmaq və bioloji sistemin darmadağın edilməsinədək irəliləyib. GMO əkinlər dünyanı başına götürür, təbii sortlar yoxa çıxarılır, torpaq təbii təyinatını dəyişir, ekoloji faciə yaranır, insan qidası sünişləşir və orqanizm təbiətdən almağa məcbur oldugu elementləri ala bilmir. Nəticələri ağır olur...

Son kəşflərin birmənalı və istisnasız olaraq hamısı insan sağlamlığına, təbiətə ciddi zərər verir. Məsələn, mobil rabitə, nüvə obyektləri, GMO, kimyəvi istehsalın əhatə dairəsinin genişlənməsi, LSD, kompyuter, 3-5-7...D filmlərin psixikaya dağıdıcı təsiri kimi saysız problemlər elmin "nailiyyətləridir". Soyuducu sistemlərin hətta ozon qatını belə dağıtdığını söyləmək isə artıqdır.

Qısası, hazırda elm davamlı olaraq insanlara və təbiətə zərər verən texnologiyalar kəşf etməklə məşğuldur. Halbuki, zərərsiz texnologiyalar da yaratmaq olar, sadəcə onlar lazımi qədər çox və sürətli gəlir vermir bunlara.

Mobil telefonların dəhşətli zərərlərini ortaya çıxaran alimlərin iri mobil telefon istehsalçıları tərəfindən pulla ələ alınması və ciddi rüşvət müqabilində bunu gizlətməsi rəzaləti ortaya çıxandan sonra artıq heç nəyə inanmağa dəyməz. Özü də bu rüsvayçılığın ÜST-də baş verməsi lap təəccüblü idi.

Bu sonuncu virus epidemiyası, qlobal pandemiya və vaksinlərlə bağlı yaşananlar elmin vəziyyətinin ağır olduğunu bir daha ortaya qoydu. Əjdaha boyda dünya elmi dünyadakı bütün kütləsi 1 qram olan adi bir virusla bacarmadı. Ziddiyyətli açıqlamalar, bir-birinə tərs elmi nəticələr və s. Bir normal vaksin düzəldə bilmədi dünya elmi.

Sizi bilmirəm, şəxsən mən daha elmə inanmıram, daha doğrusu elmə inanıram, onun səmimiliyinə inanmıram. Elmi mərkəzlər konkret olaraq qlobal dairələrin əlində alətdir. Ziddiyyətli informasiya axını içində başımız itəndə bütün bu məlumatları bir kənara qoyub, dədə-babadan sınaqdan çıxmış ənənəvi sağlam həyat tərzini, qidalanma, təbii geyim, təbii ev quruluşunu... xatırlayıram, heç bir maddi marağı olmayan köhnə alimlərimizin dedikləri ilə, indiki pula satılan Qərb "alimlərinin" dediklərini tutuşdururam. Əvvəllər elmin nailiyyətləri, alimlərin fəaliyyət məqsədləri ancaq xalqın, ölkənin inkişafı üçün səmimi olaraq ortaya qoyulurdu. Bu alimlərinin kəşfləri insanların sağlam həyatını və düzgün inkişafını təmin etməyə yönəlirdi.

Müasir kapitalizm dünyasında hər şey biznes maraqları naminə qurban verilir. Əsas məsələ mümkün qədər tez və sürətlə, daha çox pul qazanmaqdan ibarətdir. Loru dildə desək, Qərb elmi mərkəzləri böyük korporasiyaların əlində alətdir. Qərb alimlərinin böyük əksəriyyəti ələ alınmış və qlobal maqnatların biznes maraqlarına tabe etdirilmişdir.

Hansısa bir dərman preparatı uzun onilliklər insanların qarnına doldurulur və sonra məlum olur ki, bunun çox dəhşətli zərərləri var imiş. Kofenin, çayın, şokaladın, çörəyin, şəkərin, ətin, duzun... xeyiri və zərəri haqda uzun sürən elmi informasiya müharibələri gedir. Əmilər, xalalar, bir qərara gəlin, bunlar zəhərlidir, yoxsa xeyirli?

Moşenniklərə inanmayın, yalnız təbii, müdaxilə olunmamış qidalara, təbii geyimlərə, təhlükəsiz texnologiyalara üstünlük verin. Məsələn, mikrodalğalı sobada yeməyi qızdırmaq kimi dəhşətli cinayətə yol verməyin. Mobil telefonu beyninizə sıxıb uzun-uzadı qeybət eləməyin. Süni qidalardan, GMO məhsullardan aralı durun, saxta dərmanların əvəzinə təbii müalicə üsullarına üstünlük verin. "Televizorda deyiblər", "İnternetdə yazıblar ki" söhbətini qurtarın. Yoxsa, vəziyyət yaxşı olmayacaq...

# Aleksey Naumov:

## “Sülh müqaviləsi tezliklə imzalanacaq”



**Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Naumov Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması, nəqliyyat və iqtisadi əlaqələri blokdan çıxarılması, ATƏT-in Minsk Qrupu və Fransanın “qəribə” davranışı bağlı ilə prosesləri Moskva-Baku platformasına şərhində təhlil edib. Ekspertin fikirlərini oxucularımızın diqqətinə çatdırırıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

### Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının mümkünlüyü haqqında

Təbii ki, indi Ermənistan sülh müqaviləsi imzalamağa və Azərbaycanın hüquqi sərhədləri daxilində ərazi bütövlüyünü tanımağa hazır deyil. Və bu, əslində, hazırda Bakı ilə İrəvan arasında razılaşmanın bağlanmasına mane olan əsas problemdir. Biz görürük ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra siyasi məntiq Ermənistanın hərbi məğlubiyyətlə barışmasına gətirib çıxarır, Ermənistan tədricən bu münaqişədə beynəlxalq hüququn onun tərəfindən olmaması ilə barışır. Biz BMT Təhlükəsizlik Şurasının o vaxt işğal olunmuş ərazilərin Azərbaycana mənsubluğunu təsdiq edən qətnamələrini xatırlayırıq, xatırlayırıq ki, Ermənistan özü faktiki olaraq heç vaxt Qarabağı rəsmən öz ərazisi hesab etməyib. Biz görürük ki, tarixi meyarlarla ildırımsürətli müharibədən sonra reallıqla diplomatik barışıq var. İlk növbədə, məğlubiyyət şokundan çıxan və bundan sonra necə yaşayacağını düşünən İrəvanın diplomatik barışması. Və siyasi və iqtisadi məntiq onu deməyə əsas verir ki, həyat üçün yalnız bir yol var- bu, barışıq yolu, bu, iqtisadi əməkdaşlıq yolu və müvafiq olaraq iqtisadi tərəqqi yoludur. Və düşünürəm ki, hər şey buradan gedir.

Mən bu prosesi qaçılmaz olaraq görürəm. Dəfələrlə dediyim kimi sürətli olmayacaq. Onu sürətləndirmək cəhdləri hətta prosesə mane ola da bilər. Düşünürəm ki, əgər söhbət Azərbaycana lazım olandan gedirsə, bu, aydın şəkildə müəyyən edilmiş aşkarlıq siyasətidir və Ermənistanın dinc siyasi təşəbbüslərini təşviq edir. Aydındır ki, Ermənistanın son vaxtlar sərhəddə törətdiyi təxribatlar, insanların ölümünə səbəb olan hiylələr Ermənistan Respublikasında dinc siyasi qüvvələri həvəsləndirmək üçün bəzi erməni siyasi qüvvələri tərəfindən Azərbaycan xəttini sarsıtmağa yönəlib. Aydındır ki, Azərbaycan əsgəri şəhid olarsa, buna dözmək olmaz və buna təxribat törədənlər Azərbaycanın haqlı olaraq hiddətlənəcəyini, hər hansı erməni təşəbbüsünü təşviq etmək siyasətindən əl çəkəcəyini və prosesin pozulacağını gözləyirlər.

Diplomatiya həmişə sıxılmış dişlər, böyük səbr və ümumiyyətlə çətinliklər tələb edir. İndi bu baxımdan top İrəvana ötürülüb. Azərbaycan öz ərazilərini azad edib, indi də bərpa edir. Tarixi proses isə istənilən halda onun tərəfindədir. Biz Ermənistanın yeni siyasi reallığa alışmasını gözləyirik. Bu, bir növ alçaltmağa, bir növ tapdalamağa çağırış deyil. Bu günün reallığını dəyişmək olmaz. Qonşularla barışmaq, ticarət, iqtisadi və siyasi əlaqələr qurmaq bütün sadə insanların, o cümlədən Ermənistandakıların maraqlarına uyğundur.



### Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində addım kimi Ermənistanın baş naziri tərəfindən Yerasx dəmir yolu layihəsinin - Azərbaycan sərhədi və Meğri hissəsinin - həyata keçirilməsi üçün işçi qrupun yaradılması haqqında

İşçi qrupun yaradılması Ermənistanla Azərbaycan arasında barışıq və münasibətlərin yaxşılaşdırılması istiqamətində kiçik addımdır. Nikol Paşinyan bu məsələdə çox məharətli oyun sərgiləyir. O, siyasi qüvvələr arasında məharətlə manevrlər edir və rəhbərlik etdiyi dövrdə Azərbaycanla müharibəni uduzmasına baxmayaraq, hakimiyyətdə qalmağı bacarıb. Əslində, bu müharibə hər halda, istənilən liderlikdə Ermənistan tərəfindən uduzmuş olardı. Biz bunu başa düşürük. Çünki iqtisadi və hərbi potensial kapital baxımından onun xeyrinə deyildi. Və buna görə də Nikol Paşinyan respublikada liderliyini saxlamaqla bərabər, Ermənistanı reallıqla barışdırmaq siyasətini də həyata keçirir. Və hesab edirəm ki, belə bir işçi qrupunun yaradılması Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi istiqamətində real addımdır. Amma yenə də tam barışıq üçün bu addımların nə qədərinin lazım olacağını indi deyə bilmərik. Amma vektorun konstruktiv istiqamətdə getməsi əlbəttə ki, yaxşıdır. Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan sülh prosesini qaçılmaz hesab edirəm.

### Ermənistan-Azərbaycan sərhədində eskalasiya haqqında

Ermənistanda genişmiqyaslı siyasi mübarizə gedir. Müxalifət xüsusi elçini Türkiyə ilə əlaqələr qurduğuna görə danlayır. Bu, daxili siyasi çəkişmələr və çəkişmələr səbəbindən baş verir. Biz başa düşürük ki, Ermənistan daxilində Azərbaycanla sülh yolu ilə nizamlanmanı istəməyən qüvvələr var. Onlar münaqişəni uzatmağa ümid edirlər. Başa düşürük ki, əgər indi Nikol Paşinyanın rəhbərliyi ilə Ermənistan Azərbaycan və Türkiyə ilə münasibətləri yaxşılaşdırsa, ticarətə başlasa, varlansa, o zaman Nikol Paşinyanın siyasi rəqiblərinin heç bir şansı olmayacaq. Çünki firavanlıq gətirən lider həyata keçməyən, ölümcül, revanşist arzular vəd edəndən həmişə üstün olur.

Və təbii ki, Azərbaycanla razılaşmaları pozmaq Paşinyanın siyasi opponentlərinin ilk işidir. Müvafiq olaraq, Nikol Paşinyan səriştəli siyasətçi, səriştəli siyasi lider kimi insanlara ən qısa zamanda firavanlıq gətirə bilər. Çünki bu, onun siyasi mövqeyinin toxunulmazlığını təmin edəcək.

### İlham Əliyevin ATƏT-in Minsk qrupunun Qarabağ ətrafında vəziyyətin nizamlanmasında iştirakının mümkünsüzlüyü ilə bağlı mövqeyi haqqında

Mənə elə gəlir ki, İlham Əliyevin Qarabağ münaqişəsinin bitdiyi və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bununla məşğul olmaması barədə sözləri heç bir izahata ehtiyac duymur. Minsk qrupu heç bir işə yaramadı. Və sonda biz münaqişənin Rusiyanın vasitəçiliyi ilə həll olunduğunu görürük və bu, nizamlanmanın ən effektiv formatıdır. Bunda təəccüblü heç nə yoxdur. İlham Əliyev xüsusilə İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupuna reverans etmədi və ümumiyyətlə, haqlı çıxdı. Minsk qrupu onilliklər ərzində bu məsələ ilə məşğul olsa da, münaqişənin həllinə nail olmayıb.

### Fransa prezidentliyinə namizədlərin Qarabağa səfərləri haqqında

Fransa faktoruna gəlincə, təbii ki, Fransa o ölkədir ki, görünür, həmişə Azərbaycanı tənqid edəcək, onun nümayəndələri Qarabağa səfər etməyə çalışacaqlar. Mənə elə gəlir ki, bu, daha çox Ermənistandakı erməni diasporunun sadə insanlardan təcrid olunması ilə bağlıdır. Ermənistanda yaşayan insanlar normal yaşamaq, işləmək, uşaq böyütmək istəyirlər. Paşinyan niyə Ermənistanın lideri olaraq qalır? Çünki o, xalq arasında populyardır. İnsanlar revanşizm deyil, iqtisadi əlaqələr, normal həyat istəyirlər. Bunun fonunda apreldə keçiriləcək prezident seçkilərində Fransa hakimiyyəti erməni diasporunu alət kimi istifadə edəcək. Xüsusilə Fransa prezidentliyinə namizəd Valeri Pekresin Qarabağa səfəri ilə bağlı daha bir qalmaqallı vəziyyətdən danışırıq. Biz gördük ki, İkinci Qarabağ müharibəsi zamanı Fransa erməni tərəfinə birmənalı olaraq daha çox dəstək verdi. Ümumiyyətlə, burada heç nə dəyişməyib.

### Azərbaycan tərəfindən qaytarılan məhbusların Ermənistanda həbsi ilə bağlı

Görüntü baxımından qəribə görünür, amma mən düşünmürəm ki, Ermənistan rəhbərliyinin indi düşündüyü məhz bu imic nəticələridir. Mən vəziyyətin ümumi mənzərəsində bu fakta o qədər də əhəmiyyət verməzdim. Və burada, təbii ki, vəziyyət göstərdi ki, Azərbaycan bir daha özünü Ermənistandan daha humanist kimi təqdim etdi. Xüsusən də bu fonda söhbət İrəvanda bütün dünyaya ”Azərbaycan onları ”geri qaytarmır” deyə qışqırılan erməni əsirlərdən gedirdi.

### Ermənistan-Türkiyə nizamlanması üzrə danışıqların başlanması haqqında

Erməni-türk nizamlanmasının başlanğıcı, məncə, gözəldir. Bu, bir çox cəhətdən Cənubi Qafqazın tarixində mühüm mərhələ olardı, o zaman ki, əslində, orada yaşayan bütün xalqlar və ölkələr regionun layiq olduğu eranı- sülh və firavanlıq dövrünü aça bilər. Və təbii ki, Ermənistan-Türkiyə dialoqu, o cümlədən Ermənistan-Azərbaycan nizamlanması üçün alətdir. Biz başa düşürük ki, o, həm ideoloji, həm də iqtisadi baxımdan bu iki məsələ bir-biri ilə sıx bağlıdır. Başa düşürük ki, Türkiyə ilə Ermənistan arasında müxtəlif cür şərh edilən və kənardan fərqli şəkildə görünən mürəkkəb ”soyqırım” məsələləri var. Amma məncə, sülh qaçılmazdır. Vaxt məsələsi indi ərazi mübahisəsinin sona daha çox yaxınlaşdığı bir məsələdir. Ermənistanda müxalifətin normallaşmaya qarşı çıxması təbii ki, konstruktivlik əlavə etmir. Amma bu müxalifətdir, o hər vasitə ilə iqtidarı aradan götürmək üçün çalışır. Amma əgər Paşinyanın yerində müxalifət olsaydı, normallaşmanın tərəfdarı olardılar.

### 2022-ci ildə Ermənistan-Azərbaycan nizamlanmasından gözləntilər və Moskvanın məsuliyyəti haqqında

Hesab edirəm ki, bu il biz Ermənistan-Azərbaycan nizamlanmasında konkret nəticələrə daha çox yaxınlaşacağıq. Mən təbii ki, sülh müqaviləsinə inanmaq istəyirəm. Buna iki amil kömək edir. Birincisi, öz siyasi bazasını gücləndirməkdə, barışığa nail olmaqda, ölkənin iqtisadi dirçəlişində maraqlı olan Nikol Paşinyan faktorudur. İkincisi, Moskva faktorudur. Aydındır ki, Moskva Cənubi Qafqazda münaqişəli vəziyyətin saxlanmasında maraqlı deyil. Moskva həm Azərbaycan, həm də Ermənistanla yaxşı münasibətlər saxlayır. O, əminəm ki, bu vəziyyəti həll etmək istərdi. Çünki siyasi xal qazanmaq istəyən bəzi azlıqlardan başqa münaqişə heç kimə lazım deyil. Odur ki, biz gözləyirik və ümid edirik ki, Nikol Paşinyanın siyasi sənəti, obyektiv siyasi-iqtisadi amillər, Moskvanın İrəvana təsiri bu il bizi sülh sazişinə maksimum yaxınlaşdıracaq.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
25 yanvar
2022-ci il




# Nə oldu sənə, Messi?..

Lionel Messi uğursuz dövrünü keçirir.
**Qol.az xəbər verir ki, argentinalı hücumçu klubu PSJ ilə Fransa çempionatının 12 turunda cəmi 1 qol vurub. "Stats Foot"un yazdığına görə, bu, onun milli çempionatlardakı bütün peşəkar karyerası ərzində ən pis göstəricisidir.**

Qeyd edək ki, PSJ dünən 22-ci turda "Reyms"ə 4:0 hesabı ilə qalib gəlib. Koronavirusa yoluxduğu üçün bir müddətdir oyunlardan kənarda qalan argentinalı 63-cü dəqiqədə meydana daxil olub. Messi nə qol vura, nə də qol ötürməsi edə bilib.


## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN


## Evlilik qaydaları sərtləşdirildi:



### YENİLİK NƏ OLACAQ?

**Səudiyyə Ərəbistanında evlilik qaydaları sərtləşdirilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, Səudiyyə Ərəbistanı hökuməti subay kişilərin Banqladeş, Pakistan, Myanma və Çaddan olan qadınlarla evlənməsinə icazə verilməyəcəyini bəyan edib. Səudiyyə Ərəbistanında bu dörd ölkədən olan əcnəbilərin ümumi sayı 500 mini keçib.**

İddia olunur ki, evlilik qadağasına böyük ehtimalla bu səbəb olub. Məkkə polis rəisi Asəf əl-Quraşi də sözügedən dörd ölkədən olan qadınların "nikaha icazə verilən ölkələr siyahısından" çıxarıldığını təsdiqləyib.

***Turqay Musayev***

# İnsanlar niyə hələ də BATİL İNANCLARA İNANIR?

"Bəzi insanların batil inanclara inanması onların qarşısına qoyduğu bir psixoloji fakta bənzəyir. Hansı ki, bu psixoloji faktın içərisində psixoloji hadisələrlə müqayisədə daha geniş dairənin əhatə olunması, əhvalın təzahürləri və eyni zamanda, cismani proseslər kimi obyetklər formalarını əhatə edən mənzərə nəzərdə tutulur". Bu sözləri SİA-ya verdiyi açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.




"Məhz buna görə də bəzən bizim inanclarımız batil inanclara inanan insanların və bu batil inancların bizim şüurumuza dərk edilməsində köməkçi vasitələrin insanlarıdır: "Çünki necə olur ki, biz bu inanclara doğru addımlar atırıq? İlk olaraq biz baxırıq ki, əgər bizim milli televiziyalarımızda da, saytlarımızda da, sosial şəbəkələrimizdə də hər gün bizim dinlədiyimiz, özümüzə uyğun olacaq bürclərimiz var ki, sanki beynimizi psixoloji olaraq o hissəyə yönəldib və həmin o deyiləcək astroloqun fikri ilə gün ərzində qarşımıza qoyduğumuz planları yaxşıca kənara çəkirik. Məsələn, bu gün bürcümüzdə bacardığınız qədər uzaq yol getməyin və yaxud digər hansısa bir misal gətirəcək məsələlərə nəzər salsaq baxacayıq ki, sən demə, bizim hər birimiz inanclara meyilli insanlarıq. Bu, təkcə bizim millətimizə xas olan xüsusiyyətlər deyil".

Psixoloq vurğulayıb ki, biz baxarıq ki, ekstrasenslərin mövzuları gedir və yaxud digər türk kanallarında da buna uyğun olacaq məqamlar görürük: "Sadəcə olaraq, burada əsas önə çıxan psixoloji faktlardır. Bizim beynimizi inkişafa doğru aparan da həmin o psixoloji faktların üzərində qurduğumuz düşüncələrimizdir, düşüncələrimizin üzərində qurduğumuz fikirlərimizdir. Fikirlərimiz bizim arzularımızdan, xəyallarımızdan irəli gəlir ki, biz o düşüncələrimizi yerinə yetirək. Bəzən bunun müəyyən yaş həddində istənilən uğurları əldə etmədikdə, insan öz daxili enerjisini çıxara bilmədikdə batil inanclara doğru addım atmağa başlayır. İnsanların da batil inanclara inanmalarının səbəbi psixoloji fakt olaraq onların inam hissini qaldırmaqdan ibarətdir"-deyə, psixoloq fikrini tamamlayıb.

***Rüqəyya Orucova***

## Başsağlığı

**Respublika 1 saylı Psixiatriya xəstəxanasının baş həkimi Ağahəsən Rəsulov və kollektivi Nəzərov Şahnəzər Yədulla oğluna qardaşı Şıxməmmədov Eynulla Yədulla oğlunun vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

***Allah rəhmət eləsin***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**